**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*əlyazması hüququnda*

**PƏRVİNƏ FƏZAİL QIZI İSMAYILOVA**

# MƏDƏNİ HÜQUQLAR: BEYNƏLXALQ HÜQUQ NORMALARININ VƏ AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**İXTİSAS: 5603.01 - "Beynəlxalq hüquq; insan hüquqları"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2016**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasında yerinə yetirilmiş, geniş müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq üzrə elmlər doktoru, professor Ə.İ.ƏLİYEV** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru, professor O.F.ƏFƏNDİYEV** |
| | **hüquq üzrə fəlsəfə doktoru İ.Z.EYVAZOV** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası** |

Dissertasiya işinin müdafiəsi "_31_" "_05__" 2016-cı il tarixdə saat "______" Bakı Dövlət Universitetinin nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris binası, 002 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "_____________" 2016-cı il tarixdə göndərilmişdir.

**FD.02.103 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru: Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat işinin aktuallığı.** Respublikamızın başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır. Ümumiyyətlə, insan hüquqları şəxsiyyət varlığının azadlığını ifadə edən müəyyən normativ strukturlu xassə və xüsusiyyət olaraq, onun həyatının, o cümlədən cəmiyyət, dövlət və digər fərdlərlə qarşılıqlı münasibətinin ayrılmaz və zəruri vasitəsidir. İnsan öz mahiyyət və fəaliyyətinin müxtəlif aspektlərində humanitar elmi araşdırmaların mövzusuna çevrilmişdir. Müasir dövrdə insan hüquqları ümumbəşər mədəniyyətinin əsas elementidir və onu öyrənmədən siyasi, iqtisadi və sosial münasibətlərin bütün sistemini qiymətləndirmək mümkün deyildir. İnsan hüquqları yüksək mədəni dəyərlərdən biridir, çünki onlar şəxsiyyəti bütün ictimai inkişaf proseslərinin mərkəzində saxlayır, onun azadlıq və hüquq bərabərliyini müəyyən edir[1].

İnsan hüquqlarının mərkəzində dayanan insan təkrarolunmaz xarakterik xüsusiyyətlərin məcmusuna və psixi amillərə malik olan, şəxsiyyəti başqalarından fərqlənən fərdiyyətdir[2]. İnsan hüquqları fərdlərin beynəlxalq səviyyədə təmin olunmuş yuridik hüquqlarıdır. Həmin hüquqlar fərdin fundamental xarakterinin qorunmasına, müharibə və dinc dövrdə onun layiqli həyat səviyyəsinin təmin edilməsinə yönəlmişdir. Əksər beynəlxalq hüquqi sənədlərdə insan hüquqlarının yalnız vətəndaşlara deyil, hər kəsə məxsus olması dəfələrlə təkrarlanmış və bununla da insan hüquqlarının universallığı tanınmışdır. İnsan hüquqlarının təmin və müdafiəsi dövlətlərin, həmçinin beynəlxalq təşkilatların əsas vəzifələrindən biridir. BMT Nizamnaməsinə əsasən Təşkilatın məqsədi din, dil, cins və irqindən asılı olmayaraq bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsi və genişləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaqdır (maddə 1.3). Nizamnamənin 55-ci maddəsində isə qeyd edilir ki, BMT irqinə, cinsinə, dilinə və dininə fərq qoymadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsinə və riayət edilməsinə dəstək verir[3].

Müasir dövrdə dünyada baş verən qlobal hadisələr (terrorçuluq, iqlim dəyişkənliyi, radikal dini mübarizə, müxtəlif xəstəliklər və s.) insan hüquqlarının,

[1] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik, Bakı, 2013, s. 10-11.
[2] Rəhimov İ.M. Cinayət və cəzanın fəlsəfəsi. Bakı, Şərq-Qərb Nəşriyyat evi, 2014, s. 129.
[3] Kelsen H. The Law of the United Nations: A Critical Analysis of Its Fundamental Problems. With supplement. New Jersey. The Lawbook Exchange LTI. 2000, p. 27-28.



o cümlədən də insanların mədəni hüquq və azadlıqlarının beynəlxalq və milli səviyyədə müdafiəsi məsələsini aktuallaşdırmışdır. Qeyd etmək lazımdır ki, müasir beynəlxalq hüquq ədəbiyyatlarında mədəni hüquqların insan hüquqlarının tərkib hissəsi olması və beynəlxalq xarakteri ilə bağlı müxtəlif fikirlər təsbit olunmuşdur. Mədəni hüquqlar insan hüquqlarının ayrılmaz tərkib hissəsidir, həmçinin insanın mənəvi və əxlaqi mövcudluğunu təmin edir. İnsan hüquqları insan təbiətinə əsaslanır, insan hüquqları yalnız insan həyatını deyil, layiqli insan həyatını təmin etməlidir[4]. Beləliklə, mədəni hüquqlar insan hüquqlarının əsas məqsədi və təyinatı bazasında formalaşmışdır. Bu səbəbdən, mədəni hüquqlarla bağlı problemlərin ayrıca yox, ümumilikdə insan hüquqları kompleksində tədqiq edilməsi xüsusi aktuallıq kəsb edir.

İnsan hüquqları sistemində mədəni hüquq və azadlıqlar xüsusi yer tutur. İnsan hüquqlarının müdafiəsi üzrə fundamental beynəlxalq-hüquqi sənədlərdə mədəni hüquqlar ikinci nəsil adlandırılan iqtisadi, sosial və mədəni hüquqlar kateqoriyasına daxildir. Mədəni hüquq və azadlıqların beynəlxalq-hüquqi əsaslarını insan hüquqlarının müdafiəsi sahəsində fundamental sənədlər olan 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 1966-cı il tarixli Beynəlxalq Paktlar təşkil edir. Qeyd etdiyimiz sənədlər bütün dünya dövlətlərinin konstitusiyaları, qanunları, hüquqi aktları üzərində güclü təsirə malikdir[5]. Son vaxtlar mədəni hüquqların beynəlxalq hüquqi əsaslarının möhkəmlənməsində ciddi dəyişikliklər baş vermişdir. Mədəni hüquqlarla bağlı bir sıra yeniliklər gətirmiş 2007-ci il tarixli Friburq Bəyannaməsi, 2009-cu ildə BMT yanında Mədəni hüquqlar üzrə Xüsusi Məruzəçi vəzifəsinin (institutunun) təsis edilməsi, 2013-cü ilin may ayında 1966-cı il İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakta Fərdi və kollektiv şikayətlər prosedurunu müəyyən edən Fakültativ Protokolun qüvvəyə minməsi, 28 may 2015-ci ildə BMT Baş Məclisi tərəfindən Mədəni dəyərlərin müdafiəsi haqqında Qətnaməsinin qəbul edilməsi hazırda mədəni hüquqların beynəlxalq səviyyədə qorunması məsələsinin aktuallığının göstəriciləridir.

Beynəlxalq insan hüquqlarının konseptual əsasları təbii hüquq nəzəriyyəsinə əsaslanır. Bu nəzəriyyəyə görə siyasi ideya kimi yaranmış fərdi hüquqlar təbii hüquqlara çevrilmişdir[6]. İnsan hüquqları kompleksinə daxil olan həm fərdi, həm də kollektiv hüquqlar xüsusiyyətlərinə malik mədəni hüquqların müdafiəsi həm beynəlxalq, həm də milli səviyyədə həyata keçirilir. Mədəni hüquq və azadlıqların beynəlxalq xarakteri və beynəlxalq-hüquqi müdafiəsi bu

[4] Donnelly J. Universal Human Rights in Theory and Practice. Third Edition. New York. Cornell University Press. Ithaca and London. 2013, p. 14.
[5] Murpy D.Sean. Principles of International Law. Concise Hornbook Series. Thomson West. 2006, p. 300.
[6] İnternational Human Rights and Humanitarian Law. Treaties, Cases and Analysis. Martin F.F., Schnably S.J., Wilson R.J., Simon S J., Tushnet V.M. New-York, Cambridge University Press, 2006, p. 2.

hüquq sahəsinin inkişafı ilə bağlıdır. Belə inkişafın nəticəsində artıq hüquq ədəbiyyatlarında Beynəlxalq və Avropa mədəni hüququ adlı anlayışlara rast gəlinir[7]. Hesab edirik ki, mədəni hüquqların müdafiəsi istiqamətində geniş normativ baza əsasında formalaşmış Beynəlxalq və Avropa mədəni hüququnun müqayisəli şəkildə araşdırılması Azərbaycan Respublikasının (AR) hüquq elmi üçün də aktual məsələdir.

Müasir dünyada baş verən qloballaşma, inteqrasiya prosesləri şəraitində ölkəmizin mədəni özünəməxsusluğunu, tarixini, adət-ənənələrini qoruyub saxlaması zəruridir. Bu kontekstdə mədəni hüquqların müdafiəsi, ümumilikdə mədəni irsin qorunması aktual problemdir. Respublikamızda mədəni hüquqların müdafiəsi istiqamətində kompleks elmi araşdırmalar demək olar ki, aparılmamışdır. Bu səbəbdən həm insanların mədəni hüquq və azadlıqlarının müdafiəsi, həm də mədəni irsin qorunması, o cümlədən bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərlə bağlı kompleks tədqiqat işinin aparılması xüsusi aktuallıq kəsb edir. AR mədəni hüquqlarının müdafiəsi sahəsində bir çox beynəlxalq müqavilələrin iştirakçısıdır. Həmin beynəlxalq müqavilələrin normaları milli qanunvericiliyin formalaşması və inkişafında öz müsbət təsirini göstərmişdir. Mədəni hüquqlar sferasında milli qanunvericiliyin inkişafında beynəlxalq hüquq normalarının nəzərə alınması pacta sunt servanda prinsipi ilə birbaşa bağlıdır. Bundan başqa, mədəni hüquqların əsasında duran mədəniyyətin inkişaf etdirilməsi hər bir sivil cəmiyyətin vəzifəsidir. AR-in mədəniyyət sahəsində dövlət siyasəti mədəni irsin qorunması və təbliği, mədəni sərvətlərin yaradılması və inkişafı istiqamətində dövlətin rəhbər tutduğu prinsiplərlə səciyyələnir.

Azərbaycan mədəniyyətinin inkişafının, daxili və xarici təhdidlərdən (saxtakarlıq, mənimsəmə, təhriflər, tarix və mədəniyyət abidələrinin məqsədli şəkildə məhvi və s.) qorunmasının və dünya mədəniyyətinə uğurlu inteqrasiyasının əsas istiqamətlərini, mədəniyyət hüquqlarının təminatı formalarını müəyyən etmək üçün AR Prezidentinin 2014-cü il 14 fevral tarixli 273 saylı Sərəncamı ilə AR-in Mədəniyyət Konsepsiyası təsdiq edilmişdir. Konsepsiya mədəni sərvətlərin, o cümlədən maddi və qeyri-maddi mədəni irs nümunələrinin, Azərbaycanın xarici dövlətlərdə milli mədəni irsinin, beynəlxalq hüquq normalarına əsaslanaraq qorunması, bərpası, təbliği və təşviqi istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

---

[7] Molchanov N.Sergey. International Cultural Law. Yekaterinburg – (Moscow), 2007-2008; Молчанов С.Н. Международное Культурное Право. Список библиографии. Институт культурного права. 2010, (10 с).; Compendium of Legal Acts of Council of Europe on the Protection of Cultural Heritage (Part 2) / Collected and edited by S.N.Molchanov; The SPC on Protection of Monuments in Sverdlovsk Oblast - Ekaterinburg: Bank of Cultural Information, 2003.



Mədəni hüquqların müdafiəsi vətəndaş cəmiyyətinin, hüquqi dövlətin əsas məqsədlərindən biridir. Respublikamızda demokratik dəyərlərə əsaslanan yeni ictimai münasibətlər sisteminin formalaşması cəmiyyətin strukturunda mühüm dəyişikliyə səbəb olmuş, vətəndaşların ictimai-siyasi proseslərdə daha fəal rol oynamasına şərait yaratmışdır. Hazırda ölkədə vətəndaş cəmiyyəti coşqun inkişaf dövrünü yaşayır. Cəmiyyətin sabit inkişafı şəxsiyyətin azadlığı və sərbəstliyinin təmin olunması şəraitində daha dayanıqlıdır. Bu meyar insan hüquqlarının bazasını təşkil edir. Belə ki, AR Konstitusiyasının 12-ci maddəsinin 1-ci hissəsinə görə, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi, həmçinin AR vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Bu maddənin 2-ci hissəsinə görə isə, bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

İnsan hüquqları, o cümlədən mədəni hüquqlar sahəsində beynəlxalq hüquqi normaların realizəsi ölkənin əsas qanunu ilə yanaşı, ölkə başçısının fərman və sərəncamlarında da öz əksini tapmışdır. Bu istiqamətdə qəbul edilmiş normativ-hüquqi aktlar kimi AR Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş AR-də insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı və AR Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş AR-də insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, normativ hüquqi aktların təkmilləşdirilməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, beynəlxalq təşkilatlarla əməkdaşlıq, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsinin gücləndirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təmini baxımından təkmilləşdirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət edir.

Hər bir sivil dövlətdə olduğu kimi, Respublikamızda da mədəni hüquqların səmərəli şəkildə realizəsi ilk növbədə daha təkmil qanunvericilik bazasından asılıdır. AR Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyasında qeyd edilir ki, qanunvericiliyin təkmilləşdirilməsi və müvafiq institusional potensialın gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçiriləcəkdir, hüquq mühafizə orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulması, onların fəaliyyətində şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulması təmin ediləcəkdir. Bütövlükdə, AR-də mədəni hüquqlar sahəsində beynəlxalq hüquq

normalarının realizəsinə dövlətin ən yüksək səviyyədə daim maraq göstərməsi mövzunun aktuallığını göstərən əsas amillərdəndir.

Beləliklə, Respublikamızda mədəni hüquq və azadlıqlarının təmin edilməsi vacib amildir. Müasir şəraitdə bu məsələnin həlli insan hüquq və azadlıqlarının müdafiəsi sferasında AR qanunvericiliyini beynəlxalq hüququn norma və prinsiplərinə uyğunlaşdırmadan mümkün deyildir. Eyni zamanda, qeyd edilməlidir ki, AR Konstitusiyası və digər normativ hüquqi aktlarda beynəlxalq hüquq normalarının primatlığı ilə bağlı zəruri müddəaların təsbit olunması problemi tam həll etmir, belə ki, həmin normaların həyata keçirilməsi üçün zəruri qanunvericilik və təşkilati mexanizmlərin təsis edilməsi aktual olaraq qalır. Bundan başqa, AR-də mədəni hüquqların həyata keçirilməsi bu sahədə beynəlxalq hüquqi normaların göstərişləri nəzərə alınmaqla baş verməlidir. Bu səbəbdən mədəni hüquqlar üzrə daxili qanunvericiliyin formalaşdırılması və onun beynəlxalq standartlara uyğunlaşdırılması, o cümlədən mədəni hüquqlar üzrə beynəlxalq standartların səmərəli realizəsi istiqamətində kompleks elmi araşdırmaların aparılması həm aktual, həm də əhəmiyyətli məsələdir.

Son dövrlər dövlətimizdə aparılan məqsədyönlü daxili və xarici siyasət tədqiqatın aktuallığını bir qədər də artırmışdır. Belə ki, bu istiqamətlərdən biri olan multikulturalizm AR üçün vacib siyasətdir, çünki, Azərbaycan çoxmillətli, çoxdinli bir ölkədir. Azərbaycanda təxminən 20-dən artıq azsaylı xalqların nümayəndələri yaşayır. Bunlar həm də müxtəlif sivilizasiyaların Azərbaycanda mövcud olduğunu göstərir. Multikulturalizm isə bütövlükdə millətlərarası, dinlərarası münasibətləri tənzimləyən bir elm sahəsidir. Bununla bağlı, AR-də başqa dövlətlərə nümunə olacaq bir təcrübə toplanmışdır. Dövlətin xüsusi qurumları bu işlə ciddi şəkildə məşğul olur. Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multikulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun əyani sübutlarından biri dövlətimizdə olan inkişafdır ki, burada Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, təəssüf ki, bütün dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya, qarşıqoymaya və qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxaran yoldur.

**Tədqiqat işinin elmi hazırlıq səviyyəsi.** Mədəniyyətin formalaşması antik dövrdən başlayır. Orta əsrlərdə isə kilsənin və ümumiyyətlə dinin ağalığı digər sferalar kimi mədəniyyətə də təsirsiz ötüşməmişdir. Renessans dövründə insana, şəxsiyyətə olan maraq, həm insan hüquq və azadlıqlarının, paralel olaraq insanın mədəni hüquqlarının inkişafına şərait yaratdı. XVII



əsrdə insan və vətəndaşın hüquqi statusunun əsas elementi olan fərdin hüquq və azadlıqları anlayışının formalaşması mədəni hüquq və azadlıqlar fenomeninin də yaranmasına gətirib çıxarmışdır. Tomas Hobbs, Hüquo Qrotsi, Benedikt Spinoza, Jan Jak Russo, Aleksis de Tokvil, Ceremi Bentam, Con Stüart Mill kimi insan hüquq və azadlıqları klassiklərinin əsərləri insanın mədəni həyatda iştirakı, mədəni hüquq və azadlıqları haqqında ilkin fəlsəfi fikirlərin yaranmasına səbəb olmuşdur.

Azərbaycanın müstəqillik əldə etdiyi 1918-20-ci illərdə bu sahəyə maraq olsa da, obyektiv səbəblərdən konkret elmi araşdırma və ya tədqiqat aparılmamışdır. XX əsrin sonlarında Azərbaycanın müstəqilliyini bərpa etməsi, ölkənin əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, hüquqi dövlət quruculuğu və hüquq sistemində aparılan islahatlardan sonra bəzi müəlliflər[8] insan hüquqları, onların beynəlxalq hüquqi müdafiəsi sahəsində ciddi elmi tədqiqatlar aparmışdır. Heydər Əliyev Fondunun və xüsusilə də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO VƏ İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın mədəniyyətin inkişafı naminə təşəbbüslərindən sonra bu sahəyə maraq daha da artmışdır.

Hazırkı tədqiqat işinin hazırlanmasında əcnəbi nüfuzlu hüquqşünas alimlərin əsərlərindən istifadə edilmişdir. Onların arasında: Celia L. “Cultural Rights: Technology, Legality and Personality” (1993); Wilson M.Anne and Hunt P. “Culture, Rights and Cultural Rights: Perspectives from the South Pacific” (2000); Donders Y. “Human Rights in Education, Science and Culture: Legal Developments and challehges” (2007); Francioni F. and Scheinin M. “Cultural Human Rights”, Martinus Nijhoff Publishers, (2008); Barth W. “On Cultural Rights: The Equality of Nations and the Minority Legal Tradition” (2008); Forest C. International Law and the Protection of Cultural Heritage, Routledge, London, (2010) və s.

**Tədqiqat işinin obyektini** mədəni hüquqlar sferasında beynəlxalq hüquq normalarının AR hüquq sistemində implementasiyası (realizəsi) təşkil edir. Bundan əlavə, beynəlxalq hüquqi standartlar nəzərə alınmaqla ölkə vətəndaşlarının, həmçinin əcnəbi və vətəndaşlığı olmayan şəxslərin, dini və milli azlıqların, bir sözlə hər kəsin mədəni hüquq və azadlıqlarının qorunması sferası hazırkı tədqiqatın obyektini təşkil edir.

**Tədqiqat işinin predmetini** mədəni hüquqlar sferasında beynəlxalq hüquq normalarının AR hüquq sistemində realizəsi ilə bağlı

[8] Hüseynov L.H. İnsan hüquqları sahəsində beynəlxalq müqavilələrin Azərbaycan Respublikasında implementasiyası məsələləri. İnsan hüquqları. Bülleten 1, Bakı, 1998; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik, Bakı, Hüquq Ədəbiyyatı Nəşriyyatı, 2002; Məmmədov R.F. Beynəlxalq hüquq. Bakı, «Qanun» nəşriyyatı, 2002; Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik, Bakı, 2007; Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, Hüquq ədəbiyyatı nəşriyyatı, 2013.

hüquqi məsələlər, insanların mədəni hüquqlarının müdafiəsinə yönəlmiş universal, regional və ikitərəfli xarakterli beynəlxalq sənədlərdə əks olunan beynəlxalq hüquq normaları (münasibətləri) təşkil edir.

**Tədqiqat işinin məqsədi** mədəni hüquqlar sferasında beynəlxalq-hüquq normalarının AR-in hüquq sistemində implementasiyası xüsusiyyətlərini müəyyən etmək və realizə prosesində meydana çıxa biləcək problemlərin həlli istiqamətində nəzəri əsaslar formalaşdırmaqdır. Bununla yanaşı, kompleks və hərtərəfli tədqiqat əsasında beynəlxalq hüquq normalarının təhlili, insanların mədəni hüquqlarının məzmunun müəyyən edilməsi və onun bütöv insan hüquqları sistemi üçün əhəmiyyətinin göstərilməsi, həmçinin insanların mədəni hüquqlarının müdafiəsinə yönəlmiş hüquqi mexanizmlərin səmərəli fəaliyyətinə dair müvafiq təkliflərin irəli sürülməsi da mühüm məqsədlərdəndir.

Qeyd edilən məqsədə nail olmaq üçün dissertasiya işində aşağıdakı **vəzifələr** müəyyən edilmişdir:

- mədəni hüquqların yaranması, tarixi inkişafı və beynəlxalq hüquqi aktlarda öz təsbitini tapmasına qədər keçdiyi yolun tədqiqi;
- mədəni hüquqların mahiyyəti və hüquqi təbiətini tədqiq edərək bu sahə haqqında bitkin bir fikir formalaşdırması;
- "İnsanın mədəni hüquqları" adlı beynəlxalq hüquqi anlayışın yaranması və inkişafının tədqiq edilməsi;
- mədəni hüquqların təsnifatı, bu istiqamətdə hüquq ədəbiyyatlarında mövcud fikir müxtəlifliklərinin təhlili;
- mədəni hüquq və azadlıqların insan hüquqları sistemində yerini müəyyən etməklə digər hüquqlarla müqayisəli şəkildə araşdırılması;
- mədəni müxtəlifliklərin və ziddiyyətlərin insan hüquqlarına təsirinin müəyyən edilməsi, nəzəri təhlil əsasında insan hüquqları sistemində mədəni hüquqlarla bağlı optimal konsensusun əldə edilməsinə yönəlmiş metodoloji yanaşmanın irəli sürülməsi;
- mədəni hüquqların beynəlxalq hüquqi əsasları, eyni zamanda, mədəni hüquqların müdafiəsi və inkişafının beynəlxalq hüquqi normalarda təsbit olunmasının müəyyənləşdirilməsi;
- mədəni hüquqlar sferasında beynəlxalq hüquqi normaları realizə edən beynəlxalq mexanizmlərin qarşılıqlı fəaliyyətinin təhlil edilməsi (mədəni hüquqlar sahəsində beynəlxalq təşkilati mexanizmlər, konkret olaraq, BMT və onun insan hüquqları sahəsində əsas qurumları, müqavilə orqanlarının fəaliyyətinin təhlili; universal səviyyədə mədəni hüquqların müdafiəsi, xüsusilə də YUNESKO-nun fəaliyyətinin və müvafiq sferada digər təşkilati mexanizmlərin fəaliyyətinin müəyyən edilməsi);



- hər bir regionun spesifikliyi nəzərə alınmaqla, mədəni hüquqların müdafiəsi üzrə müxtəlif regionlarda fəaliyyət göstərən normativ və təşkilati mexanizmlərin fəaliyyətinin tədqiqi (mədəni hüquqlarının müdafiəsi sferasında Avropa, Amerika, MDB, Afrika regionlarında fəaliyyət göstərən regional təşkilati mexanizmlərin fəaliyyətinə nəzər yetirilməsi, eyni zamanda bu regionlarda qüvvədə olan normativ mexanizmlərin vəziyyətinə diqqət yetirilməsi);
- Azərbaycan cəmiyyətinin mədəni həyatının ümumi xarakterinin göstərilməsi, cəmiyyətin mədəni həyatına konstitusion hüquqi qiymət verilməsi və Respublikamızda mədəni hüquqların inkişafı və realizəsi üzrə ümumi problemlərin üzə çıxarılması;
- mədəni hüquqların realizəsi üzrə beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi ilə bağlı elmi ədəbiyyatların və normativ materialların ümumiləşdirilməsi və ciddi təhlil edilməsi, AR və digər dövlətlərin beynəlxalq və dövlətdaxili hüququn əlaqəsi məsələsi üzrə qanunvericilik və hüquq tətbiqi praktikasının, doktrinasının kompleks şəkildə araşdırılması;
- mədəni hüquqlar sahəsində beynəlxalq hüquq normalarının AR mədəniyyət qanunvericiliyinin formalaşmasına və inkişafına göstərdiyi təsirin təhlili;
- ölkəmizin müxtəlif beynəlxalq təşkilatlarla apardığı beynəlxalq mədəni əməkdaşlığın cəmiyyətimizdə mədəniyyətin inkişafına təsirinin müəyyənləşdirilməsi;
- mədəni hüquqların müdafiəsi sferasında beynəlxalq müqavilə normalarının milli qanunvericilik sistemində tutduğu yer, həmin müqavilələrin ölkənin qanunvericilik sisteminə hansı şəkildə daxil olması, tətbiqi və təfsiri məsələlərinin araşdırılması;
- mədəni hüquqlar sahəsində universal, regional xarakterli müqavilə və konvensiyaları, o cümlədən Respublikamızın ikitərəfli beynəlxalq müqavilələrini tədqiq edilməsi:
- mədəni hüquqlarla bağlı AR qanunvericiliyinin inkişaf xüsusiyyətlərinin təhlili.

**Tədqiqat işinin metodoloji əsasını** dialektikanın kateqoriya və prinsipləri, o cümlədən hüquq elmində hamılıqla qəbul olunan ümumnəzəri və xüsusi elmi metodlar təşkil edir. Dissertasiyada formal-məntiqi metoddan, müqayisəli hüquq metodundan və tarixi metoddan, sistemli analiz metodundan daha çox istifadə edilmişdir. Bundan başqa tədqiqat işində konkret-sosioloji və digər elmi metodlar da tətbiq edilmişdir.

**Tədqiqat işinin nəzəri əsasları.** Tədqiqat işində beynəlxalq hüquq, insan hüquqları və mədəni hüquqlar sferasında tədqiqat aparan hüquqşünas alimlərin əsərlərindən istifadə edilmişdir. Onların arasında, beynəlxalq və milli

hüquq sferasında tədqiqat aparan bir sıra yerli hüquqşünas alimlərin – Ə.İ.Əliyev, İ.M.Rəhimov, R.F.Məmmədov, L.H.Hüseynov, V.Ə.İbayev, A.İ.Mustafayeva, əcnəbi alimlərdən, ilk növbədə, rus ailmlərindən S.N.Molçanov, L.A.Karatayeva, A.N.Morozova, S.İ.Nosov, V.İ.Akulenko, İ.M.Arçibasov, O.E.Kutafin, Y.A.Vedenin, P.M.Şulqin, K.Viland, L.İ.Qluxarev, K.Q.Dmitriyeva, B.M.Klimenko, A.İ.Martınov, V.Popov, N.V.Mixaylov, O.Q.Rumyantsev, F.M.Rudinskiy, Z.M.Çernilovski, E.Y.Yeqorov, İ.N.Vişnyakov; Avropa və Amerikan alimlərindən R.Joel, G.Meyjes, C.Forest, T.Buergental, R.Stavenhagen, V.Bart, A.Gallaher, E.Ridel, F.Fransioni, M.Şeynin, E.Stamatopoulou, E.Asbyorn, O.De-Şutter, M.Vilson, K.Barri, H.Silverman, F.Raqqls və başqalarının əsərlərindən geniş istifadə edilmişdir.

**Tədqiqat işinin normativ bazasını** insan hüquqları, o cümlədən mədəni hüquqlar sferasında qəbul edilmiş universal və regional beynəlxalq hüquqi aktlar, AR-in mədəni hüquqlar sahəsində qanunvericilik aktları təşkil edir. Tədqiqat işinin normativ bazası qismində: İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda, ona Fakültativ Protokolda və insan hüquqlarına dair əsas beynəlxalq sazişlərdə təsbit edilən müqavilə normaları; insanın mədəni hüquq və azadlıqlarına dair beynəlxalq adət normaları; BMT və YUNESKO-nun mədəni hüquqların realizəsi istiqamətində qəbul etdiyi normalar; insanların mədəni hüquqlarının müdafiəsinə dair beynəlxalq və milli məhkəmə qərarları çıxış edir.

**Dissertasiya işinin elmi yeniliyi** onunla əlaqələndirilməlidir ki, burada, ilk növbədə, Beynəlxalq və Avropa mədəni hüququ, onun elmi və normativ əsasları əhatə edilir. Bundan əlavə qeyd etmək lazımdır ki, mədəni hüquqların müdafiəsi sferasında beynəlxalq hüquq normalarının milli qanunvericiliyimizdə tətbiqi imkanları ilə bağlı məsələlər əvvəllər kompleks şəkildə araşdırılmamışdır. Müstəqil elmi hədəf kimi insanın mədəni hüquqlarına dair universal və regional beynəlxalq hüquq normalarının kompleks şəkildə araşdırılmasına dair milli hüquq elmimizdə tədqiqat aparılmamışdır. Eyni zamanda, mədəni hüquqlar sferasında beynəlxalq hüquq normalarının milli hüquq sistemində realizəsi məsələləri, o cümlədən dövlət hakimiyyəti orqanlarının bu prosesdə iştirakı AR-in hüquq doktrinasında kompleks tədqiqat predmeti olmamışdır. Buna qədər əksər işlər ya beynəlxalq və dövlətdaxili hüququn əlaqəsi ilə bağlı ümumnəzəri aspektlərə, ya da insan hüquqlarının ayrı-ayrı sahələrində beynəlxalq hüquq normalarının implementasiyası məsələlərinə həsr edilmişdir. Buna görə də, hazırkı tədqiqat işi mədəni hüquqlar sferasında beynəlxalq hüquq normalarının realizəsi, o cümlədən bu sahədə beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı təsiri istiqamətində ilk kompleks tədqiqat əsəri hesab oluna bilər.



Tədqiqatın elmi yeniliyini özündə ifadə edən aşağıdakı **yeni elmi müddəalar** müdafiəyə təqdim olunur:

1. İnsan və vətəndaşların mədəni hüquq və azadlıqları müstəqil sahə olmaqla, özünün hüquqi tənzimetmə predmetinə malikdir və cəmiyyətin mədəni həyatındakı ictimai münasibətləri əhatə edir. Mədəni hüquqların realizəsi və inkişaf səviyyəsi ümumilikdə ölkənin mədəniyyətinin inkişafına təsir göstərən ilkin amildir, insanların mədəni hüquqları nə qədər səmərəli olsa və maneəsiz realizə olunsa, cəmiyyətin mədəni həyatı, insanların mədəniyyətə marağı da bir o qədər çox olar, yəni mədəni hüquqların realizəsi ilə mədəniyyətin inkişafı düz mütənasibdir. 1966-cı il tarixli İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt və YUNESKO çərçivəsində qəbul edilmiş beynəlxalq konvensiyalar, o cümlədən regional səviyyədə, xüsusilə də Avropa məkanında qəbul edilən beynəlxalq sənədlərdən sonra dövlətlər insanların mədəni hüquqlarının tam şəkildə realizəsi üçün qanunvericilik, inzibati, maliyyə və digər xarakterli tədbirlərin həyata keçirilməsində maraqlıdırlar. 2013-cü ilin may ayında 1966-cı il İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakta Fərdi və kollektiv şikayətlər prosedurunu müəyyən edən Fakültativ Protokolun qüvvəyə minməsindən sonra, artıq bütün beynəlxalq birlik mədəni hüquqları dövlətlərin beynəlxalq hüquqi öhdəliyi kimi qəbul etmişdir.

2. Mədəni hüquqların müdafiəsi və mədəni irsin qorunub saxlanması istiqamətində beynəlxalq normativ bazanın inkişafı, Avropada mədəniyyətin inkişafı, mədəni dəyərlərin, mədəni irsin qorunması, insanların mədəni hüquq və azadlıqlarının müdafiəsi sahəsində qəbul edilmiş normativ-hüquqi aktlar, həmçinin hüquq ədəbiyyatlarındakı konseptual fikirlər Avropa mədəni hüququnun formalaşmasına gətirib çıxarmışdır. Avropa mədəni hüququnun əsasında Avropanın spesifik xüsusiyyətləri nəzərə alınmaqla Avropa mədəni dəyərləri və onların müdafiəsi dayanır. Avropa mədəni hüququnun formalaşması haqqında fikir söyləməyə əsas verən amillər Qitədə baş vermiş inteqrasiya prosesləri nəticəsində təsis edilən birliklərin fəaliyyəti, bu sahədə qəbul edilən mühüm beynəlxalq sənədlər, bütün bu prosesin yekununda toplanmış normativ baza və təcrübədir.

3. İnsanların mədəni hüquq və azadlıqlarının müdafiəsi və realizəsi sferasında çoxsaylı beynəlxalq hüquqi aktların və mexanizmlərin mövcudluğuna baxmayaraq, həmin təsisatlar arasında razılaşdırılmış fəaliyyətin zəifliyi müşahidə olunur. Bu hal mədəni hüquqların realizəsi üzrə dövlətlərin götürdükləri öhdəliklərin realizəsində çətinliklər yaradır. Fikrimizcə, bu problemin həlli üçün YUNESKO mühüm əlaqələndirici rolunda çıxış edə bilər. Bu təşkilata mədəni hüquqların müdafiəsi üzrə

beynəlxalq standartların dövlətdaxili səviyyədə tətbiqi üzrə mühüm beynəlxalq normaların hazırlanması və həmin normaların tətbiqinə nəzarətin həyata keçirilməsi üzrə real səlahiyyətlər və imkanlar verilməlidir. Belə olduqda, mədəni hüquqlar sahəsində beynəlxalq standartların unifikasiyası, həmçinin 1966-cı il İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 15-ci maddəsinin tələblərinin icrası iştirakçı-dövlətlər tərəfindən vahid şəkildə təmin edilə bilər. Həmin beynəlxalq normaların qəbul edilməsində isə YUNESKO ilə yanaşı, insan hüquqları, mədəni hüquqlar sferasında digər beynəlxalq təşkilatlar və beynəlxalq qeyri-hökumət təşkilatlarının sıx əməkdaşlığı təmin edilməlidir.

4. Mədəni hüquqlar insanların, cəmiyyətin mədəni həyatında maddi və mənəvi töhfədən istifadə etməsi ilə bağlı qanunla təsbit edilən və təmin edilən imkanlarıdır. Bu imkanların realizəsi isə dövlət orqanlarının iştirakı ilə həyata keçirilir. Mədəni hüquq və azadlıqlar ikili xarakterə - fərdi və kollektiv xüsusiyyətlərə malik olduğundan kompleks elmi yanaşma tələb edir. İnsanın mədəni hüquq və azadlıqlarının təminatı həmin hüquq və azadlıqların realizəsi zamanı istifadə edilən iqtisadi, sosial, ideoloji və hüquqi vasitə və metodların məcmusudur. Sosial dövlətin və cəmiyyətdə həyat şəraitinin effektiv inkişafı üçün mədəni hüquqlar vacibdir. Mədəni hüquqların əsl realizəsi olmadan hüquqi-sosial dövlətin yaradılması, iqtisadi proseslərin əxlaqlı ölçüsü, insanın, cəmiyyətin və dövlətin arasında münasibətlərin yeni parametrlərinin qurulması mümkün deyildir.

5. Respublikamızda mədəni hüquqların müdafiəsi ilə bağlı kifayət qədər normativ baza vardır, lakin həmin hüquq və azadlıqların müdafiəsi üzrə beynəlxalq təcrübənin və milli maraqların ahəngində formalaşmalı olan mexanizmin daha da təkmilləşdirilməsi zəruridir. Bundan başqa, Respublikamızın beynəlxalq mədəni əməkdaşlığı əsasən universal yönümlü təşkilatlarla aparılır. Azərbaycanla tarixi, etnik və dil bağlılığı olan türkdilli ölkələr, müsəlman ölkələri, həmçinin bu istiqamətdə fəaliyyət göstərən digər regional beynəlxalq təşkilatlarla əməkdaşlığa üstünlük verilməsi də məqsədəuyğun hesab edilməlidir.

6. Mədəni hüquqlar sahəsində beynəlxalq hüquq normalarının ictimai əhəmiyyətli nəticələri dövlətdaxili hüquq vasitəsilə həyata keçirilir. Beynəlxalq hüquq normalarının realizəsi yollarının seçilməsi dövlətlərin daxili səlahiyyətindədir. Belə səlahiyyət dövlət suverenliyi prinsipindən irəli gəlir. Mədəni hüquqların həyata keçirilməsi zamanı beynəlxalq, yaxud da milli hüquq normaları ayrı-ayrılıqda əsas götürülməli deyil, belə ki, bu sfera həm beynəlxalq, həm də dövlətdaxili hüququn tənzimetmə obyektinə daxil olduğundan kompleks



yanaşmaya üstünlük verilməlidir, çünki hər iki normalarda, yəni beynəlxalq, həmçinin milli hüquq normalarında müəyyən çatışmazlıqlar qaçılmazdır.

7. Mədəni hüquqlarının müdafiəsi sferasında dövlətlər arasında beynəlxalq əməkdaşlıq münasibətlərinin kifayət qədər genişlənməsi müşahidə olunur. Bu isə öz növbəsində mədəni hüquqlar sferasında beynəlxalq hüquq normalarının sayının çoxalmasına gətirib çıxarır. Həmin normaların səmərəli realizəsi isə dövlətdaxili hüquq vasitəsilə həyata keçirilir. Beynəlxalq hüququn dövlətdaxili sferada realizəsi AR-in və beynəlxalq hüququn normalarının uyğunlaşdırılması prosesi çərçivəsində baş verir. Mədəni hüquqların realizəsi dövlətin ilk növbədə, beynəlxalq hüquqi öhdəliyidir. Bu baxımdan dövlətlərin onun ərazisində yaşayan insanların (vətəndaşlar, əcnəbi və vətəndaşlığı olmayan şəxslər) mədəni hüquqlarını təmin etmək üzrə əsas öhdəliyini məhz beynəlxalq insan hüquqları kontekstində nəzərdən keçirmək lazımdır. Konstitusion səviyyədə beynəlxalq hüquq normalarının realizəsi həm dövlətdaxili realizənin əsas göstəricisidir, həm də dövlətin öz beynəlxalq öhdəliklərinə riayət etməsinin aşkar nümunəsidir. Buna müvafiq olaraq Konstitusiyamızda insan hüquq və azadlıqlarına geniş yer ayrılması, həm beynəlxalq hüququn əsas normativ-hüquqi realizəsi, həm də dövlətimizin özünün beynəlxalq öhdəliklərinə riayət etməsinin ən yüksək təzahürüdür.

8. İnsanların mədəni hüquqlarının realizəsinin təmin edilməsi, beynəlxalq və dövlətdaxili mexanizmlərin qarşılıqlı əlaqəsini şərtləndirir. Maddi-hüquqi baxımdan bu əlaqə mədəni hüquqlarla bağlı beynəlxalq standartların dövlətdaxili qanunvericiliyə daxil edilməsində özünü göstərirsə, prosessual-hüquqi nöqteyi-nəzərdən bu qarşılıqlı əlaqə mədəni hüquqların müdafiəsi üzrə beynəlxalq orqanların funksiyalarından istifadə olunması istiqamətində milli mexanizmlərlə həmin beynəlxalq təsisatların fəaliyyətinin koordinasiyasında ifadə olunur. Bu baxımdan insanların mədəni hüquqlarının milli məhkəmələrdə təmin edilməsi ilə bağlı dövlətdaxili təcrübənin təkmilləşdirilməsinə xüsusi əhəmiyyət verilməsi məqsədəuyğun hesab olunur. Əlbəttə ki, bu zaman beynəlxalq məhkəmə qurumlarının, xüsusilə, İnsan hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinin öyrənilməsi və tətbiqi mühüm əhəmiyyət kəsb edəcəkdir.

9. Mədəni hüquqlar arasında ölkənin ictimai-iqtisadi və elmi inkişafı baxımından təhsil hüququ xüsusi əhəmiyyət kəsb edir. Təhsil hüququnun realizəsi, təhsilin inkişafına dövlət qayğısı kimi mühüm məsələlər AR-in qoşulduğu beynəlxalq hüquqi aktlarda da öz təsbitini tapmışdır. Bunları nəzərə alaraq qabaqcıl dünya təcrübəsindən yararlanmaqla ölkəmizdə informasiya cəmiyyətinin tələblərinə uyğun elmi infrastrukturun təkmilləşdirilməsi, elmin maddi-texniki bazasının müasirləşdirilməsi və bu sahədə informasiya təminatı sistemlərinin daha da inkişafı prioritet

məsələlərdən hesab edilməlidir. Eyni zamanda, təhsil standartlarının unifikasiyası və Bolonya prosesinin dərinləşməsi, ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyası, ali təhsilin məzmununun Bolonya prinsiplərinə tam uyğun qurulması fəaliyyəti daha da sürətləndirilməlidir. Belə ki, AR-də təhsil sisteminin zamanın tələblərinə uyğun inkişafı həm insanların mədəni hüquqlarının realizəsi, həm də ölkəmizin müasir təhsil standartlarına uyğun səmərəli inkişafı baxımından olduqca zəruri şərtdir.

10. Mədəni hüquqların həyata keçirilməsi zamanı son dövrlər AR-də həyata keçirilən dövlətdaxili tədbirlər bu hüquqların təminatında mühüm rola malikdir. Bu istiqamətdə Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd edilməlidir. Xüsusilə bir sıra beynəlxalq təşkilatlarla (BMT, YUNESKO, İSESKO və s.) aparılan uğurlu əməkdaşlıq siyasəti dövlətimizin mədəni hüquqların təmin edilməsinə göstərdiyi mühüm siyasətin əyani təzahürüdür. Heydər Əliyev Fondu həyata keçirdiyi qlobal layihələrlə insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəçisi statusunda çıxış etmiş, AR-in hərtərəfli inkişafına və vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndirilməsinə mühüm töhfələr vermiş, vətəndaşların problemlərinin həllinə səy göstərməklə imkanlarını bu istiqamətdə səfərbər etmişdir. AR-in müxtəlif universal və regional beynəlxalq təşkilatlara üzvlüyü, habelə ayrı-ayrı ölkələrlə ikitərəfli əlaqələrin genişləndirilməsi kontekstində çoxsaylı müqavilələr yolu ilə beynəlxalq və dövlətdaxili qurumlarla, o cümlədən qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqələrin inkişafını daim əsas tutan Heydər Əliyev Fondu beynəlxalq təşkilatlarla iş və əməkdaşlıq əlaqələrinin qurulmasına böyük dəstək olmuş, Azərbaycançılığın təbliği, mədəni sərvətlərin və mədəni hüquqların qorunmasında mühüm fəaliyyət həyata keçirmişdir.

**Tədqiqat işinin nəzəri əhəmiyyəti**. Mədəni hüquqların müdafiəsi və effektiv realizəsi imkanları ümumilikdə cəmiyyətin mədəni həyatının zənginləşməsinə yol açır, gələcək inkişafı üçün yenilənmə və mövcud qanunvericilik bazasının məzmun və mahiyyətinin yenidən işlənib hazırlanmasını tələb edir. Fikrimizcə, tədqiqat işinin nəticələri konstitusiya hüququ, beynəlxalq hüquq, insan hüquqları, əmək, ailə, inzibati hüquq elmləri üçün xüsusi maraq kəsb edir. Tədqiqat işinin praktiki əhəmiyyəti mədəni hüquqlar haqqında biliklərin sistemləşdirilməsi, genişləndirilməsi və dərinləşdirilməsi ilə bağlıdır. Müəllif müvafiq sferada qanunvericilik bazasının təkmilləşdirilməsini, mədəni hüquqların realizəsi zamanı dövlət orqanlarının beynəlxalq normalara istinad etməsinə şərait yaradan mexanizmlərin işlənib hazırlanmasını təklif edir.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Beynəlxalq xüsusi hüquq və Avropa



hüququ" kafedrasında yerinə yetirilmiş, geniş müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir. Tədqiqat işinin əsas müddəaları müəllifin dissertasiyanın mövzusu üzrə AR və Rusiya Federasiyasının nüfuzlu elmi jurnallarında müxtəlif dillərdə (azərbaycan və rus) dərc etdirdiyi elmi əsərlərdə, o cümlədən beynəlxalq elmi konfransın materiallarında öz əksini tapmışdır.

**Tədqiqatın strukturu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Tədqiqat işinin giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın strukturu haqqında məlumat verilir.

Birinci fəsil **"Mədəni hüquqların formalaşması, mahiyyəti, təsnifatı və insan hüquqları sistemində yeri"** adlanır və üç paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** mədəni hüquqların formalaşması və inkişaf tarixi ilə bağlı məsələlər tədqiq edilir. Qeyd olunur ki, mədəni hüquqların formalaşması mədəniyyət anlayışı ilə birbaşa bağlıdır. "Mədəniyyət"ə isə ədəbiyyatlarda və lüğətlərdə müxtəlif anlayışlar verilir. Mədəniyyət anlayışını tədqiq edən F.Hegel onu insanın yaratdığı ikinci təbiət kimi adlandırmışdı. Mədəniyyət – təbiətin insanlara verdiyi nemətdir, insanların uzun illər yaratdığı və əldə etdiyi maddi və mədəni dəyərləri, insanları əhatə edən təbii aləmi dəyərləndirmək naminə bizə bəxş edilmiş imkandır.

Müasir kulturologiyada "mədəniyyət"in 500 müxtəlif anlayışı verilir. Mədəniyyət – insanların həyat tərzi, müxtəlif həyat fəaliyyəti formaları, həyata baxışın fərqliliyini əks etdirən xalqların tarixi yaddaşıdır. Belə fəaliyyət nəticəsində insanlar müəyyən bilik, tərbiyə, yaradıcılıq və mənəvi-əxlaqi dəyərlər əldə edir. Eyni zamanda, mədəniyyət müxtəlif cəmiyyətlərin və xalqların xarakterik xüsusiyyətidir. Mədəniyyətlərin fərqliliyi cəmiyyətin, sivilizasiyanın ən əhəmiyyətli dəyəridir. İnsanlar mədəniyyətin köməyi ilə özünü sərbəst, azad şəxs, sivilizasiyanın tərkib hissəsi olmasını başa düşür. Xalqın mədəniyyəti nə qədər fərqli və özünəməxsusdursa, bir o qədər də bəşəriyyət üçün dəyərlidir.

Mədəniyyət anlayışı ilə birbaşa bağlı olan mədəni hüquqların formalaşması uzun bir tarixi inkişaf yolu keçmişdir. Nəzəri baxımdan mədəni hüquqların əsasında öz iradə azadlığına malik insan, insanların bərabərliyi və bəşəriyyətin bütövlüyü kimi ideyalar dayanırdı. Mədəni hüquqların

formalaşmasına təkan verən amillərdən biri insanların düşüncəsində təbiət elmlərinə marağın artması olmuşdur. İnsan həyatında meydana çıxan çoxsaylı suallara cavab tapmaq gücündə olan təbiət elmlərinə maraq artıq e.ə. V əsrdən başlayaraq Qədim Yunanıstan kütləviləşməyə başlamışdı. Bu dövrdə siyasi və ictimai institutların demokratikləşməsi prosesi də gedirdi. Qədim Yunanıstanda, bir qədər sonra isə Qədim Romada incəsənət, mədəniyyət, elm və fəlsəfə intensiv şəkildə inkişaf etməyə başlamışdır.

Mədəni hüquqların formalaşmasını Qədim Yunanıstandan başlayan sosial münasibətlərin inkişafı nəticəsində təbiət elmlərinin, mədəniyyətin və incəsənətin kütləviləşməsi ilə əlaqələndirmək olar. Mədəni hüquqların müasir anlamda xüsusiyyətləri Roma cəmiyyətində öz təsbitini tapmışdır. Antik dövrdə (həm Yunanıstan, həm də Romada) insan hüquqları anlayışı yox, vətəndaş hüquqları anlayışı tətbiq edilirdi.

Sabit və müstəqil sistem kimi mədəni hüquqlar XX əsrin I yarısından formalaşmağa başlamışdır. Bu dövrdə mövcud olmuş dövlətlərin konstitusiyaları (məsələn, Almaniyada 1919-cu il tarixli Veymar Konstitusiyası) təhsil, məktəb, vicdan azadlığı, maarifçilik kimi məsələləri tənzimləyirdi .

Müasir anlamda mədəni hüquq və azadlıqların yeni fazası İkinci Dünya Müharibəsindən sonra formalaşmağa başlamışdır. 10 dekabr 1948-ci il tarixdə insan hüquqları sahəsində ilk universal sənəd olan Ümumdünya İnsan hüquqları Bəyannaməsi qəbul edildi. Bu sənəd insanın mədəni hüquq və azadlıqlarını təsbit etməklə, onların təmin edilməsini dövlətlərin və xalqların üzərinə bir vəzifə kimi qoymuşdu. 1966-cı il tarixli beynəlxalq paktlarda və digər universal, regional beynəlxalq hüquqi aktlarda 1948-ci il Bəyannaməsinin müddəaları daha da konkretləşdirilmişdir. 1966-cı il paktları mədəni hüquqları mülki və siyasi hüquqlar məcmusundan ayıraraq, ayrıca bir kompleks şəklində təsbit etmişdi. Bir vacib məsələ isə ondan ibarətdir ki, mülki və siyasi hüquqların realizəsi üçün dövlətlər müəyyən hərəkətlərdən çəkinməli idisə ("neqativ hüquqlar"), mədəni hüquqların realizəsi üçün əksinə müəyyən şərait ("pozitiv hüquqlar") yaradılmalıdır.

Mədəni hüquq və azadlıqların tarixi inkişafı ilə bağlı məsələlərin araşdırılması ona görə vacibdir ki, bu kateqoriya hüquq və azadlıqların inkişafı ilk növbədə, cəmiyyətin mədəni inkişaf səviyyəsindən asılıdır. Bu zaman mədəniyyət, mənəviyyat və şəxsiyyət anlayışları təhlil olunur. Şəxsiyyət yüksək mənəviyyata, dinə, mədəniyyətdə irəliləyişə əsaslanmalıdır. Mənəviyyat və mədəniyyət insan idealına və mədəni hüquq və azadlıqlara söykənir. Etik və dini tərbiyə şəxsiyyətin və xalqın mənəvi dəyərlərinin qorunub saxlanmasına imkan verir. Bunun nəticəsində insanın



mənəvi-mədəni təcrübəsi və hüquq düşüncəsi, insanın mədəni hüquq və azadlıqları haqqında məsələlər meydana çıxır.

**İkinci paraqrafda** mədəni hüquqların mahiyyəti və hüquqi təbiəti ilə bağlı məsələlər tədqiq edilir. Mədəni hüquqların mahiyyətinin daha dəqiq anlamı üçün mədəni dəyərlər anlayışına diqqət yetirilməlidir. Mədəni dəyərlər - əxlaqi və estetik ideallardır, norma və davranış qaydalarıdır, milli adət və ənənələr, dil, dialekt, tarixi toponim, folklor, incəsənət nümunələri, mədəniyyət fəaliyyətində elmi tədqiqatların nəticə və metodları, tarixi abidələr, predmet və obyektlərdir. Mədəni dəyərlər mədəniyyət anlayışı ilə bilavasitə bağlıdır.

Mədəni hüquqlar insanın maddi və mənəvi yaşayış mühitinin yaradılmasında, cəmiyyətin humanistləşdirilməsinə kömək edən norma və dəyərlərin yaradılması və yayılmasında, insanların qarşılıqlı hörmətinə, əxlaqa və insani dəyərlərə əsaslanan cəmiyyətin həmrəyliyində iştirakıdır. Fikrimizcə, sosial dövlətin və cəmiyyətdə həyat şəraitinin effektiv inkişafı üçün mədəni hüquqlar çox vacibdir. Mədəni hüquqların əsl realizəsi olmadan hüquqi, sosial dövlətin yaradılması, iqtisadi proseslərin əxlaqlı ölçüsü, insanın, cəmiyyətin və dövlətin arasında münasibətlərin yeni parametrlərinin qurulması mümkün deyildir.

Beynəlxalq hüquqi sənədlərdə təhsil, mədəni həyatda iştirak, elmi tərəqqidən faydalanma kimi mədəni hüquq və azadlıqlar təsbit olunmuşdur. Hüquqi nöqteyi-nəzərdən mədəni hüquqları müəyyən etmək mürəkkəb məsələdir. Mədəniyyət zaman və məkanda şəklini dəyişən, dinamik və fərqli bir fenomendir[9]. Siyasi baxımdan hökumətlər həmişə ehtiyat edirlər ki, mədəni dəyərlərin inkişafı öz müqəddəratını təyin etməyə şərait yaratdığından dövlətin vahidliyinə xələl yetirir. Bu baxımdan alimlər mədəniyyət, siyasət və beynəlxalq münaqişələr arasında əlaqəni qeyd edirlər[10]. Bunlar mədəni hüquqların az tədqiqinə, zəif inkişafına şərait yaradan amillər hesab edilir[11]. Hətta bəzi müəlliflər hesab edirlər ki, hüquqi sənədlərdə təsbit edilən mədəni hüquqlar real hüquqlar yaratmır, əksinə proqram xarakterli siyasi öhdəliklər yaradır[12].

Mədəni hüquq və azadlıqlar onları digər növ hüquqlardan fərqləndirən özünəməxsus xüsusiyyətlərə malikdir. Xüsusilə də mədəni hüquq və azadlıqlar özünün spesifik fəaliyyət sferasına malikdir. Mədəni hüquqların əsas xüsusiyyətləri aşağıdakılardan ibarətdir: bu hüquq və azadlıqlar insanın mənəvi-mədəni həyat sferasına təsir göstərir; insanın hərtərəfli mənəvi-mədəni inkişafına xidmət göstərir; hər bir insana mədəni

---

[9] Preamble, UNESCO Convention on the Protection and Promotion of the Diversity of Cultural Expressions, adopted on 20 Oct. 2005, p. 2.
[10] Huntingto S.P. The Clash of Civilizations and the Remaking of the World Order. Touchstone, New York, 1996, p. 13.
[11] Francioni F., Scheinin M. Cultural Human Rights. International Studies in Human Rights. Martinus Nijfoff Publishers. Leiden-Boston, 2008, p. 317-318.
[12] Joel R. Paul. Cultural Resistance to Global Governance. 22 Michigan J Int'l L (2000–2001) p. 51.

həyatın aktiv iştirakçısı olmağa imkan yaradır; hər kəsə mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ verir; yüksək hüquqi qüvvəyə malik olmaqla ölkənin əsas qanununda təsbit edilir; mədəni hüquqların realizəsi konkret normativ və təşkilati tədbirlər tələb edir.

Mədəni hüquqlar həm dövlətdaxili, həm də beynəlxalq hüququn tənzimetmə predmetinə daxildir. Mədəni hüquqların əsas məqsədi cəmiyyətin həmrəyliyini və şəxsiyyətin ləyaqətini təsdiq edən davranış standartları və əxlaq qaydalarını formalaşdırmaqdır. Buna görə də, mədəni hüquq və azadlıqlara təkcə dövlətdaxili normativ hüquqi aktlarda yox, həmçinin beynəlxalq hüquqi aktlarda da geniş yer ayrılmışdır. 1948-ci il tarixli Ümumdünya İnsan hüquqları Bəyannaməsinin 27-ci maddəsində qeyd edilir ki, hər bir insan, cəmiyyətin mədəni həyatında iştirak etmək, incəsənətdən həzz almaq, elmi tərəqqidə iştirak etmək və onun nemətlərindən istifadə etmək hüququna malikdir. 1966-cı il tarixli İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 15-ci maddəsində isə hər kəsin mədəni həyatda iştirak etmək, elmi tərəqqinin nəticələrindən və onların praktiki tətbiqindən istifadə etmək hüququ göstərilir.

Mədəni hüquq və azadlıqlar mübahisəsiz şəkildə hüquqi xarakterə malikdir və həmin hüquqların realizəsi dövlətlərin vəzifəsidir. Mədəni hüquqların realizəsi üzrə dövlətimizin öhdəliyinin hüquqi əsasını AR Konstitusiyasının 12-ci maddəsi təşkil edir; həmin maddəyə müvafiq olaraq, insan və vətəndaşların hüquq və azadlıqlarını, layiqli həyat səviyyəsini təmin etmək Azərbaycan dövlətinin ali məqsədidir. Bundan əlavə, Konstitusiyasının Sosial inkişaf və dövlət adlı 16-cı maddəsində qeyd edilir ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Azərbaycan dövləti mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

Mədəni hüquqların inkişafı hər bir ölkənin siyasi, iqtisadi durumundan, ölkədəki sabitlikdən daha çox asılıdır. Bu səbəbdən mədəni hüquqların realizəsi kompleks xarakterə malikdir.

**Üçüncü paraqrafda** mədəni hüquqların təsnifatı və insan hüquqları sistemində yeri tədqiq olunur. Əsas insan hüquq və azadlıqları ilə bağlı mühüm istiqamətlər insan hüquqlarına dair fundamental beynəlxalq hüquqi sənədlərdə, BMT Nizamnaməsində, 1948-ci il Ümumdünya İnsan hüquqları Bəyannaməsində, 1966-cı il tarixli Mülki və siyasi hüquqlar haqqında və İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktlarda öz ifadəsini tapmışdır. Qeyd edilən sənədlər dövlətlərin konstitusiya, qanun,



məhkəmə qərarları və ümumilikdə insan hüquqları sahəsində siyasətinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir[13].

İkinci Dünya Müharibəsindən sonra bir çox Avropa ölkələrinin sosial yönümlü dövlət quruculuğu, Beynəlxalq Əmək Təşkilatının müvafiq konvensiyalarının qəbul edilməsi, 1961-ci ildə Avropa Şurası (AŞ) tərəfindən Avropa Sosial Xartiyasının qəbul edilməsi kimi amillər də bu hüquqların realizəsi ilə bağlı prosesə ciddi təkan vermişdir[14]. Adətən hüquq ədəbiyyatlarında iqtisadi, sosial və mədəni hüquqları ikinci nəsil hüquqlar kimi müəyyən edirlər. “İkinci” sözü ilə, bunların birinci nəsil hüquqlarından daha sonra gəldiyi, xronoloji olaraq da daha sonra irəli sürüldüyü və tələb olunduğu mənasına gəlir. Həqiqətən də, liberal fəlsəfə, ilk növbədə birinci nəsil hüquqlar üzərində dayanırdı. İkinci nəsil hüquqlar üzərində ilk dəfə sosialistlər hərəkətə keçiblər. XX əsrin ikinci yarısında isə, Qərb fəlsəfəsi də bunların əhəmiyyəti üzərində durmuşdur. Bunlara iqtisadi, sosial və mədəni hüquqlar deyildiyi kimi, pozitiv hüquqlar da deyilir. İkinci nəsil hüquqlar pozitivdir, realizəsi üçün müəyyən resurslar, zaman, maliyyə vəsaitləri tələb edir, hüquqi təminatları zəifdir, yəni onların pozulması halında bərpa olunmaları üçün hüquqi mexanizmlər zəifdir.

İnsanın mədəni hüquq və azadlıqları konstitusiya və qanunlarla təmin olunan xüsusi kompleks insan hüquq və azadlıqlarıdır ki, onlar insanın mədəni və elmi sahədə özünü realizə etməsinə imkan yaradır. Elmi ədəbiyyatlarda mədəni hüquq və azadlıqlar kateqoriyasına nəyin aid edilməsi haqqında vahid fikir yoxdur. Nəzərdə almaq lazımdır ki, insan və vətəndaşın hüquq və azadlıqlarının məzmun və siyahısı daimi dinamikadadır və cəmiyyətin inkişafı ilə şərtlənmişdir. AR-də mədəni hüquqların məzmun və növlərinə Respublikamızın beynəlxalq konvensiyalara qoşulması əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Həm Avropa, həm Rusiya, həm də yerli müəlliflər mədəni hüquq və azadlıqları iqtisadi və sosial hüquqlar qrupunda nəzərdən keçirirlər. Ə.İ.Əliyev qeyd edir ki, mədəni hüquqlar insanın mənəvi inkişafını təmin edir, hər bir fərdə siyasi, mənəvi, sosial və mədəni tərəqqinin layiqli iştirakçısı olmağa kömək edir. Bunlara aşağıdakılar daxildir: təhsil, mədəni sərvətlərdən istifadə imkanı, cəmiyyətin ictimai həyatında sərbəst iştirak, yaradıcılıq, elmi tərəqqinin nəticələrindən istifadə etmək və onların praktiki tətbiqi[15].

1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və 1966-cı il tarixli İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt təhsil

[13] Murphy D. Sean. Principles of international Law. Concise Hornbooks Series. Thomson West. 2006, p. 300.
[14] Азаров А., Ройтер В., Хюфнер К. Права человека. Международные и российские механизмы защиты. М.:Московская школа прав человека, 2003, с. 35.
[15] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Hüquq ədəbiyyatı nəşriyyatı, Bakı, 2013, s. 168.

hüququ; mədəni həyatda iştirak etmək; elmi tərəqqinin nəticələrindən və onların praktiki tətbiqindən istifadə etmək; müəllifi olduğu hər hansı elmi, ədəbi, yaxud incəsənət əsərlərinin nəticəsində meydana çıxan maddi və mənəvi maraqların müdafiəsindən istifadə etmək hüququnu təsbit etmişdir. Demək olar ki, eyni mədəni hüquqlar regional beynəlxalq hüquqi aktlarda da öz əksini tapmışdır.

İkinci fəsil **"Mədəni hüquqların beynəlxalq hüquqi əsasları və müdafiəsi"** adlanır və üç paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** mədəni hüquqların müdafiəsi və inkişafının beynəlxalq hüquqi normalarda təsbit olunması tədqiq edilir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul olunmasından sonra, mədəni hüquqlar universal, regional və milli səviyyələrdə bəyan edilməklə ümumdünya xarakteri aldı. Bəyannaməyə əsasən insanların yaşadıqları cəmiyyətin mədəni həyatında iştirak etmək, incəsənətlə məşğul olmaq, elmin, texnikanın inkişafında yaxından iştirak etmək və belə tərəqqinin nəticələrindən yararlanmaq hüququna malikdir. İnsanlar müxtəlif sahələrdə yaratdıqları öz mədəni dəyərlərini müdafiə etmək hüququna malikdirlər. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi mədəni hüquqların təsnifatını aparmaqla yanaşı, onların realizəsi imkanını da müəyyən etmişdir.

1948-ci il Bəyannaməsinin müddəalarını inkişaf etdirərək 16 dekabr 1966-cı il tarixli İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt təhsil və mədəni hüquqları təsbit etməklə, ümumilikdə mədəni hüquqların geniş təsnifatını verir. Bu Pakt iştirakçı-dövlətlərin qeyd edilən hüquqların realizəsi üçün görəcəyi tədbirlər sırasına elmi və mədəni dəyərlərin qorunması, inkişafı və təbliği üçün zəruri tədbirləri də aid edir. Paktın iştirakçı-dövlətləri insanlar arasında fərq qoymadan onların Paktda müəyyən edilmiş bütün iqtisadi, sosial və mədəni hüquqlardan bərabər istifadə etmələrini təmin etməyi öhdələrinə götürürlər.

Mədəni hüquqlarla bağlı məsələlər insan hüquqlarına dair fundamental sənədlərlə yanaşı, digər spesifik beynəlxalq sənədlərdə də öz təsbitini tapmışdır, xüsusilə də YUNESKO çərçivəsində işlənib hazırlanmış və qəbul edilmiş beynəlxalq konvensiyalar bu zaman mühüm əhəmiyyətə malikdir. XXI əsrdən başlayaraq, mədəni hüquqların əhəmiyyəti artmağa başlamışdır. Əgər əvvəllər bu kateqoriya hüquqların realizəsi üçün resurs və zamanın tələb olunması səbəbindən zamanın axarına buraxılması səbəbi gətirilirdisə, bu tendensiya tədricən aradan qalxmağa başladı. YUNESKO-nun müvafiq sferada fəaliyyəti nəticəsində mədəni hüquqların müdafiəsi üzrə beynəlxalq hüquqi sənədlərin sayı da artmağa başladı. Mədəni hüquqların beynəlxalq hüquqi əsaslarında, hətta təsnifatında belə əhəmiyyətli dəyişikliklər baş vermişdir.



Bu istiqamətdə yumşaq hüquq normaları da xüsusi əhəmiyyət kəsb edir. 2007-ci il tarixli Friburq Bəyannaməsində səkkiz növ mədəni hüquqlar kompleksi öz əksini tapmışdır, həmin hüquqlar arasında mədəni cəmiyyətlərə qoşulma (maddə 4), mədəni əməkdaşlıq (maddə 8) kimi yeni mədəni hüquqlar da öz təsbitini tapmışdır.

**İkinci paraqrafda** universal səviyyədə mədəni hüquqların müdafiəsi, əsasən də YUNESKO-nun fəaliyyəti tədqiq olunur. ECOSOC-un 1985/17 saylı Qətnaməsi əsasında 1985-ci ildə İqtisadi, sosial və mədəni hüquqlar Komitəsi yaradılmışdır. Komitə müqavilə orqanı olmaqla İqtisadi, sosial və mədəni hüquqlara dair Beynəlxalq Paktda əks olunmuş hüquqların iştirakçı dövlətlər tərəfindən yerinə yetirilməsinə nəzarəti həyata keçirir.

Paktın fərdi şikayətlər proseduru yenidir. Fərdi Şikayət proseduru İnsan Hüquqları Şurasının 8/2 saylı 18 iyun 2008-ci il tarixli Qətnaməsi ilə İqtisadi, sosial və mədəni Hüquqlara dair Beynəlxalq Pakta əlavə olunan Fakültativ Protokolda nəzərdə tutulur. Bu Protokol 5 may 2013-cü ildə qüvvəyə minmişdir. Protokolu 45 dövlət imzalasa da, 11 dövlət ratifikasiya etmişdir. Komitənin göstərilən funksiyasının işləməsi mədəni hüquqların yuridik anlayışının dərinləşməsinə və onun insan hüquqları sistemində statusunun möhkəmlənməsinə şərait yaradır.

2009-cu ildə mədəni hüquqların universal səviyyədə müdafiəsi ilə bağlı vacib beynəlxalq orqan təsis edilmişdir. BMT İnsan Hüquqları Şurasının 10/23 saylı Qətnaməsi ilə Mədəni hüquqlar üzrə Xüsusi Məruzəçi institutu yaradılmışdır. Mədəni hüquqlar sferasında müstəqil ekspert olan məruzəçi mədəni hüquqların müdafiəsi sahəsində tədbirlərin qəbul edilməsinə köməklik göstərir. O, BMT İnsan Hüquqları Şurasına konkret tövsiyələr təqdim etməklə mədəni hüquqlar və mədəni müxtəliflik arasında qarşılıqlı əlaqəni inkişaf etdirir.

YUNESKO, ümumi dəyərlərə hörmətə əsaslanan sivilizasiyaların, mədəniyyətlərin və xalqların arasında dialoq üçün şəraitin yaradılması üzərində işləyir. Məhz bu dialoq vasitəsilə dünya insan hüquqlarına riayət etməni, qarşılıqlı hörməti və yoxsulluğun yükünün azaldılmasını əhatə edən davamlı inkişafın qlobal anlamına gələ bilər. Bütün bunlar YUNESKO-nun missiyanın və fəaliyyətinin mahiyyətini təşkil edir. YUNESKO BMT Sabit İnkişaf naminə Təhsil Onilliyi (2005-2014) proqramının aparıcı təsisatıdır. Bu proqramın əsas hədəfi sabit inkişafın təmin edilməsi istiqamətində təhsilin aparıcı rolunun nümayiş etdirilməsidir. Müasir dünyada YUNESKO-nun fəaliyyəti əhəmiyyətli dərəcədə genişlənmişdir. Belə ki, insanın mənəvi və əqli aləmi ilə bağlı beynəlxalq əməkdaşlıq sferasında XXI əsrin çağırışları ilə bağlı uzunmüddətli, strateji cavablar dayanır.

BMT ixtisaslaşmış təsisatı olan YUNESKO insan hüquqlarının, xüsusilə də təhsil və mədəni hüquqların müdafiəsi sahəsində səmərəli fəaliyyət həyata keçirir. Bu hüquqların təşviqi, qorunması və genişləndirilməsi YUNESKO-nun missiyasına daxildir. BMT üzvü olan dövlətlərin, o cümlədən, AR və YUNESKO ilə əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsi yuxarıda qeyd edilən hüquqların müdafiəsi və səmərəli şəkildə realizəsində vacib amildir. YUNESKO insan hüquq və azadlıqlarının müdafiəsi və stimullaşdırılması sahəsində normayaradıcılıq və nəzarət mexanizmi (üzv-dövlətlərin hesabatı, şikayətlərə baxılması) üzrə fəaliyyət həyata keçirir.

Müasir dünyamızda baş verən qlobal hadisələr arasında terrorçuluqla beynəlxalq mübarizə birinci yerdədir. Terror bütün sahələrdə olduğu kimi mədəniyyətə də öz dağıdıcı təsirini göstərir. İraq İslam Şam Dövləti (İŞİD) adlanan terror qruplaşması tərəfindən 2014-cü ildən başlayaraq, İraq və Suriya ərazilərində tarixi, mədəni irsin kütləvi şəkildə məhv edilməsi həyata keçirilir. Həmin ildə İraqın qədim şəhəri olan Mosulda çoxlu sayda şiə məscidləri, dini abidələr, tarixi artefaqlar qəsdən dağıdılmışdır. 2015-ci ilin mart ayında İŞİD terror qruplaşması Nimrud, Hatra, Dur Şarrukin, Ninevya kimi qədim tarixi şəhərləri məhv etməklə, həmin şəhərlərdəki tarixi artefaqlarını dağıdıb və qarət etmişlər. Bütün bu hadisələr beynəlxalq ictimaiyyət tərəfindən kəskin şəkildə pislənmişdir, demək olar ki, bütün beynəlxalq təşkilatlarda bu hadisələr cinayət kimi qəbul edilmişdir. BMT Təhlükəsizlik Şurası İŞİD-in bu addımlarını terror aktı adlandırmışdır.2014-cü ildə YUNESKO-nun Silahlı münaqişələr dövründə mədəni dəyərlərin müdafiəsi üzrə Komitəsinin 9-cu yığıncağında Təşkilatın Baş katibi İrina Bokova Suriya və İraqda mədəni dəyərlərin məhvini, Mosul şəhərinin tarixi və mədəni abidələrinin qəsdən dağıdılmasını pisləyərək bu aktları tarixi səhv adlandırmışdır. YUNESKO-nun Baş katibi İrina Bokova Nimrud şəhərindəki hadisələri isə hərbi cinayət kimi qələmə vermişdir.

YUNESKO-nun Baş katibi İrina Bokova 21 yanvar 2016-cı il tarixdə İsveçrənin Davos şəhərində keçirilən Ümumdünya İqtisadi Forumunda mədəni və tarixi irsin məhv edilməsinin qarşısının alınması ilə mübarizədə informasiya-təbliğat fəaliyyətinin gücləndirilməsini, hərbi cinayətlərə görə cəza sistemində təkmilləşdirmənin aparılmasını, beynəlxalq və milli qanunvericilikdə müvafiq istiqamətdə daha real və səmərəli dəyişikliklərin həyata keçirilməsinin vacibliyini xüsusilə qeyd etmişdir. Daha sonra, YUNESKO-nun Baş katibi bu mübarizədə müvafiq bilik, foto və informasiya mübadiləsinin gücləndirilməsinə çağıraraq, 2015-ci ilin sonlarında gömrük, hüquq mühafizə əməkdaşlarının, muzey



işçilərinin və mədəniyyət sferasında ekspertlərin müvafiq istiqamətdəki birgə və zəruri fəaliyyətini xüsusilə vurğulamışdır.

Ermənistanın dövlətimizə qarşı təcavüzünün tarixi və mahiyyəti, onun törətdiyi nəticələr dünya birliyinə yaxşı məlumdur və bu əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı qoparıb özünə birləşdirməyə çalışan Ermənistanın Azərbaycan Respublikasına ərazi iddiaları nəticəsində yaranmışdır. Çoxsaylı tarixi sənədlər sübut edir ki, erməni millətçiləri tərəfindən hələ 1905-1907-ci, 1918-1920-ci, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlı öz doğma torpaqlarından deportasiya olunmuş və vəhşicəsinə genosidə məruz qalmışdır. Təcavüzkar Ermənistan tərəfindən 1988-ci ildən başlayan növbəti işğalçılıq siyasəti əzəli Azərbaycan torpaqları olan yerlərdən iki yüz minə yaxın azərbaycanlının kütləvi deportasiya edilməsi və növbəti genosid faktı ilə nəticələnmişdir[16]. Ermənistanın Azərbaycan Respublikasına sonrakı təcavüzü nəticəsində ölkə ərazimizin 20 faizindən çoxu, yəni 17.000 kv.km torpaq sahəsi işğal altında qalmış və 1 milyondan çox azərbaycanlı öz doğma yurd yuvalarından didərgin düşmüşdür. İşğal olunmuş ərazilərdə 6 minə yaxın kənd təsərrüfatı və sənaye obyekti, 102 min yaşayış evi, 4366 sosial-mədəni obyekt, 7 min ictimai bina, 693 orta məktəb, 855 məktəbəqədər müəssisə, 695 xəstəxana və digər tibb müəssisələri, 10 məscid, 160 körpü, 368 klub, 927 kitabxana, 85 musiqi məktəbi, 464 muzey və tarixi abidə, 6 dövlət teatrı dağıdılmış, 800 km-lik dəmir yolu və avtomobil yolları, 15 min km elektrik və qaz xətləri, 2300 km-lik regional əhəmiyyətli su kommunikasiya sistemləri sıradan çıxarılmış, 31 məscid, 9 tarixi saray, 1 milyon hektar kənd təsərrüfatı sahəsi, 250 min hektar meşə sahəsi, 200 paleontoloji, geoloji abidə erməni separatçıların əlinə keçmişdir[17].

**Üçüncü paraqrafda** mədəni hüquqların müdafiəsi üzrə regional səviyyədə normativ və təşkilati mexanizmlər tədqiq edilir. Avropada mədəni hüquqların müdafiəsi AŞ, ATƏT və Avropa İttifaqı (Aİ) çərçivəsində həyata keçirilir. AŞ çərçivəsində əsas müqavilə mexanizmi 1950-ci il tarixli İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası və ona əlavə protokollardır. Avropa Konvensiyası bir sıra mühüm əhəmiyyət kəsb edən xüsusiyyətlərə malikdir. Məhz bu Konvensiya hüquqi cəhətdən məcburi olan ilk regional insan hüquqları məcəlləsidir. İnsan hüquqlarının müdafiəsi üzrə əsas beynəlxalq müqavilələr, o cümlədən Avropa Konvensiyası hüquqi müdafiə vasitələrindən istifadə və fərdi şikayətlər imkanını beynəlxalq səviyyədə bəyan edir.

Avropada mədəniyyətin inkişafı, mədəni dəyərlərin, mədəni irsin qorunması, insanların mədəni hüquq və azadlıqlarının müdafiəsi sahəsində

[16] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Hüquq ədəbiyyatı nəşriyyatı, Bakı, 2013, s. 47-48.
[17] Azərbaycan Respublikası 1991-2001. R.Ə.Mehdiyevin redaktəsi ilə Bakı, 2001, s.255.

qəbul edilmiş normativ aktlar, həmçinin hüquq ədəbiyyatlarındakı konseptual fikirlər Avropa mədəni hüququ haqqında fikirlər söyləməyə imkan verir. Avropa mədəni hüququnun əsasında Avropanın spesifik xüsusiyyətləri nəzərə alınmaqla, Avropa mədəni dəyərlərinin müdafiəsi dayanır. Avropa mədəni hüququnun formalaşması haqqında fikir söyləməyə əsas verən amillərdən biri Qitədə baş vermiş inteqrasiya prosesləri nəticəsində təsis edilən birliklərin fəaliyyəti, onların qəbul etdikləri sənədlər və bütün bu prosesin yekununda toplanmış normativ baza və təcrübədir. AŞ, ATƏT və Aİ çərçivəsində mədəniyyət sahəsində 400-dən çox normativ hüquqi akt qəbul edilmişdir. Müvafiq sferada əsas fəaliyyəti AŞ və Aİ həyata keçirmişdir.

Avropa mədəni hüququnun hüquqi tənzimlənməsi sahəsində əsas fəaliyyət istiqamətlərinin həyata keçirilməsində Aİ mühüm yer tutur. Beynəlxalq analitiklər çox vaxt qeyd edirlər ki, iqtisadiyyatın "mədəniləşməsinin" ümumavropa tendensiyası baş verir. Bu proses Aİ-nin iqtisadi göstəricilərində də özünü əks etdirir. Avropa Birliyi və ittifaqının təsis sənədlərində mədəni hüquqların müdafiəsi ilə bağlı müddəalar öz ifadəsini tapmışdır. Avropa İqtisadi Birliyinin təsis edilməsi haqqında 1957-ci il Roma Müqavilənin 3.1-ci maddəsinə əsasən Birliyin fəaliyyəti və qarşısına qoyduğu məqsədlərin realizəsi təhsilə töhfə, peşəkar tədris və mədəniyyətin inkişafına şərait yaratmalıdır. Roma Müqaviləsinin 3-cü bölməsi Təhsil, peşəkar tədris və gənclər adlanır.

Avropadan fərqli olaraq, Amerikada mədəni hüquqların müdafiəsi sahəsində normativ baza nisbətən zəifdir, bu regionda mədəni hüquqların müdafiəsi əsas etibarilə insan hüquq və azadlıqlarının müdafiəsi kontekstində həyata keçirilir. Avropa regionundan başqa, Amerika regionunda da insan hüquq və azadlıqlarının müdafiəsi sferasında bir çox mexanizmlər fəaliyyət göstərir. Bu regionda əsas müqavilə mexanizmi 22 noyabr 1969-cu ildə San-Xose şəhərində keçirilmiş İnsan hüquqları üzrə Amerikaarası Konfransda qəbul edilmiş və 1978-ci ildə qüvvəyə minmiş İnsan hüquqları haqqında Amerikaarası Konvensiyadır. 1988-ci ildə İnsan hüquqları üzrə Amerikaarası Konvensiyaya İqtisadi, sosial və mədəni hüquqlar üzrə San-Salvador Protokolu qəbul edilmişdir. Protokol mədəni hüquqları bəyan etməklə yanaşı, həmin hüquqların realizəsi üzrə dövlətlərin öhdəliklərini də müəyyən etmişdir. Amerikada mədəni hüquqların müdafiəsi üzrə əsas sənədlərdən biri də 1976-cı il tarixli Amerika dövlətlərinin arxeoloji, tarixi və bədii irsinin mühafizəsi üzrə Konvensiyadır.

Afrikada insanların mədəni hüquq və azadlıqlarının və mədəni irsin mühafizəsi istiqamətində ciddi addımlar atılmışdır. Əvvəlcə Afrika Birliyi Təşkilatı, sonra isə Afrika İttifaqı çərçivəsində mədəni hüquqların müdafiəsi sferasında bir sıra normativ hüquqi aktlar qəbul edilmişdir. Bu sənədlər



arasında 1976-cı il Afrika Mədəniyyət Xartiyası, 1981-ci il İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyası və 2006-cı il tarixli Afrikanın Mədəni renessansı Xartiyasını xüsusilə qeyd etmək lazımdır. Afrikada insan hüquqlarının realizəsi üzrə digər institusional mexanizm İnsan və xalqların hüquqları üzrə Afrika Məhkəməsidir. 1993-cü ilin yanvarında Afrika Birliyi Təşkilatı Seneqalda keçirilən görüşdə Afrika Məhkəməsinin yaradılmasını qərara aldı. Bundan sonra keçirilən ardıcıl konfrans və görüşlərin nəticəsində 1998-ci ildə Afrika Birliyi Təşkilatının Nazirlər Şurasının 67-ci sessiyasında Afrika Məhkəməsinin təsis edilməsi haqqında Protokol qəbul edildi. Məhkəmənin yurisdiksiyasını tanıyan dövlətin vətəndaşları, həmçinin dövlətlər Afrika Xartiyasında nəzərdə tutulan hüquq və azadlıqların pozulması ilə bağlı Məhkəməyə birbaşa müraciət edə bilərlər.

Üçüncü fəsil **"Azərbaycan Respublikasında mədəni hüquqların inkişafı və realizəsi problemləri"** adlanır və üç paraqrafı özündə birləşdirir.

**Birinci paraqrafda** mədəni hüquqlar sahəsində beynəlxalq hüquq normalarının AR-in milli qanunvericiliyinin formalaşmasına təsiri və qanunvericiliyin inkişafı məsələləri araşdırılır.

Qeyd edilir ki, Respublikamız mədəni hüquqlarının müdafiəsi sahəsində bir çox beynəlxalq müqavilələrin iştirakçısıdır. Həmin beynəlxalq müqavilələrin normaları milli qanunvericiliyin formalaşması və inkişafında öz müsbət təsirini göstərmişdir. Mədəni hüquqlar sferasında milli qanunvericiliyin inkişafında beynəlxalq hüquq normalarının nəzərə alınması pacta sunt servanda prinsipi ilə birbaşa bağlıdır. AR-də dövlətdaxili qanunvericiliyin beynəlxalq hüquq normalarına uyğunlaşdırılması məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş və hazırda da həyata keçirilməkdədir. Beynəlxalq və milli hüququn əlaqəsi ilə bağlı müddəalar ən yüksək səviyyədə, yəni AR Konstitusiyasının müvafiq maddələrində öz təsbitini tapmışdır. Belə ki, AR Konstitusiyasının 148.2-ci maddəsinə əsasən ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələr milli qanunvericiliyimizin tərkib hissəsidir. Konstitusiyamızın 151-ci maddəsi isə beynəlxalq və milli hüquq arasında kolliziyanı həll edir. Bir vacib məqamı qeyd edək ki, bütün sivil dövlətlərdə olduğu kimi, AR-də də ümumi hüquq qaydası (burada söhbət ölkə konstitusiyası və referendum aktlarından gedir) beynəlxalq hüquqi aktlara nisbətdə primatlığa malikdir. Ölkəmizin əsas qanununda insan hüquqları üzrə beynəlxalq normalara münasibət isə bir qədər fərqli müəyyən edilmişdir. Bu fərqliliyin əsasını AR Konstitusiyasının 12.2-ci maddəsi təşkil edir. Həmin maddəyə müvafiq olaraq, Konstitusiyada təsbit edilən əsas insan hüquq və azadlıqları ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

AR beynəlxalq münasibətlər sahəsində normativ fəaliyyətin işlənib hazırlanmasına və gücləndirilməsinə xüsusi diqqət yetirməklə mədəni hüquqlar sahəsində bir sıra mühüm beynəlxalq konvensiyalara qoşulmuşdur: İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt; Silahlı münaqişələr zamanı ümumdünya mədəni irsinin qorunması haqqında YUNESKO Konvensiyası və Protokolu; Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında YUNESKO Konvensiyası; Avropa Mədəniyyət Konvensiyası; Mədəni dəyərlərin qeyri-qanuni gətirilməsi, aparılması və mülkiyyət hüququnun dəyişdirilməsinin qadağan edilməsinə və qabaqcadan ödənilməsinə yönəldilən tədbirlər haqqında Konvensiya; Ədəbi və bədii əsərlərin qorunması haqqında Bern Konvensiyası; Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyası; Birgə Kino istehsalı haqqında Avropa Konvensiyası; Beynəlxalq Xüsusi Hüquq Unifikasiya İnstitutunun (UNİDRUA) Oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəniyyət sərvətləri haqqında Konvensiyası və ona edilmiş Əlavə; YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması haqqında Konvensiyası; Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya və s.

AR Konstitusiyasında YUNESKO-nun insan hüquq və azadlıqlarının müdafiəsi fəaliyyəti ilə sıx bağlı olan təhsil hüququ, mədəniyyət hüququ, fikir və söz azadlığı, bərabərlik hüququ, həmçinin, tarix və mədəniyyət abidələrinin qorunması vəzifəsi təsbit edilmişdir. Bu sahədə bir sıra qanunvericilik aktları qəbul edilmişdir.

Mədəniyyət hüququ sahəsində konkret qanunvericilik aktı Mədəniyyət haqqında 21 dekabr 2012-ci il tarixli Qanundur. Bu Qanun AR-də dövlət mədəniyyət siyasətinin məqsəd və prinsiplərini, mədəniyyət fəaliyyəti subyektlərinin hüquq və vəzifələrini, mədəniyyət sahəsində hüquqi, təşkilati, iqtisadi və sosial təminatları müəyyən edir, mədəni sərvətlərin yaradılması, toplanması, tədqiqi, təbliği və qorunması sahəsində yaranan münasibətləri tənzimləyir. Qanunda mədəniyyət termininə anlayış verilir, mədəniyyət sahəsində aşağıdakı hüquq və azadlıqlar bəyan edilir: mədəni həyatda iştirak, mədəni özünəməxsusluq; xaricdə mədəniyyət fəaliyyəti; mədəniyyət sahəsində mülkiyyət, sahibkarlıq hüququ; mədəni sərvətlərlə xarici ticarət; mədəni sərvətlərdən istifadə kimi hüquqlar, həmçinin; yaradıcılıq azadlığı və mədəniyyət sahəsində məlumat azadlığı kimi azadlıqlar müəyyən edilmişdir.

Təhsil haqqında AR Qanunu vətəndaşların AR Konstitusiyasında təsbit olunmuş təhsil hüququnun təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prinsiplərini və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtlərini müəyyən edir, təhsilin ayrı-ayrı pillələri üzrə müvafiq qanunların və digər normativ hüquqi aktların qəbul edilməsində baza rolunu oynayır. Qanunun əsas məqsədi təhsil sahəsində vətəndaşların konstitusiya



hüququnun təmin edilməsindən və qorunmasından, icra strukturlarının, təhsil alanların və təhsil verənlərin, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrinin düzgün müəyyən edilməsindən, onlar arasında münasibətlərin tənzimlənməsindən, təhsil sisteminin sərbəst fəaliyyəti və inkişafı üçün hüquqi təminatların yaradılmasından ibarətdir.

2011-ci ildə AR-də insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı təsdiq olunmuşdur. Proqram dövlətin gələcək illərdə fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir və ictimaiyyətə, həmçinin, beynəlxalq birliyə insan hüquq və azadlıqları sahəsində AR-in prioritetlərinin tam məğzini təqdim edir. Mədəniyyət sahəsində milli qanunvericiliyimizin yaranması və müasir dövrdəki inkişafına bu sferada qoşulduğumuz beynəlxalq sənədlər xeyli dərəcədə təsir göstərmişdir. Bütün bu tədbirlər, milli mənəvi dəyərlərin, mədəni irsimizin və tariximizin qorunub saxlanmasında vacib normativ bazadır. Hesab edirik ki, beynəlxalq hüquq normalarının müsbət xüsusiyyətlərindən yararlanan milli qanunvericiliyimiz mədəni hüquqların realizəsi yolunda əhəmiyyətli normativ hüquqi əsasdır.

**İkinci paraqrafda** AR-in beynəlxalq mədəni əməkdaşlığı və mədəniyyət siyasəti ilə bağlı məsələlər tədqiq edilir.

AR beynəlxalq mədəni əməkdaşlığın inkişafını dəstəkləyərək belə əməkdaşlığın hər bir dövlətin suverenliyi, qanun və adətlərinə hörmət edilməsi əsasında həyata keçirilməsini təsdiqləyir. Beynəlxalq mədəni əməkdaşlıq hüquq bərabərliyi və qarşılıqlı fayda prinsiplərinə əsaslanmalıdır, eyni zamanda, başqa xalqların mədəniyyətinə, onların milli xüsusiyyətlərinə və ənənələrə dərin hörmət olunmalıdır. Beynəlxalq mədəni əməkdaşlığın prinsipləri üzrə BMT Bəyannaməsinə əsasən Beynəlxalq mədəni əməkdaşlıq təhsil, elm və mədəniyyət sahəsində bütün əqli və yaradıcılıq növlərini əhatə etməlidir. Mədəniyyət sferasında beynəlxalq əməkdaşlıq AR-in bu sferada həyata keçirdiyi dövlət siyasətinin əsas tərəflərindən biridir. Mədəniyyət sferasında beynəlxalq təşkilatlar və dövlətlərlə əməkdaşlıq AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq realizə olunur. Mədəni sahədə beynəlxalq əməkdaşlıq beynəlxalq mədəni dəyərlər arenasında AR-in mövqeyinin möhkəmləndirilməsinə və genişləndirilməsinə xidmət edir. Mədəni sahədə beynəlxalq əlaqələr insanların elm və qabiliyyətinin, təcrübi bilik və bacarıqlarının beynəlxalq formada dövriyyəsinin inkişafı qaydasında baş verir. AR-in mədəniyyət sahəsində milli qanunvericiliyində, konkret olaraq Mədəniyyət haqqında AR Qanununda bu sahədə beynəlxalq əməkdaşlığın inkişafı vacib istiqamət kimi qəbul edilir. Qanunda mədəni sahədə beynəlxalq əməkdaşlığın əsas istiqamətləri də təsbit edilir.

AR 1992-ci ilin iyulun 3-də YUNESKO-ya üzv olmuşdur. Azərbaycanın YUNESKO ilə əlaqələrinin inkişafı isə 1993-cü il noyabr ayının 3-də AR nümayəndə heyətinin YUNESKO-nun Parisdə keçirilən Baş Konfransının 27-ci sessiyasında iştirakı ilə bağlıdır. Ölkəmizin YUNESKO ilə münasibətlərinin genişlənməsində Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin dekabr ayında Fransada rəsmi səfərdə olarkən YUNESKO-nun Baş Direktoru Federiko Mayorla görüşü mühüm əhəmiyyətə malikdir. Həmin görüşdə tərəflər əməkdaşlığın inkişafı məsələsini və onun gələcək perspektivlərini geniş müzakirə etmişlər. Ümumiyyətlə, AR ilə YUNESKO arasındakı əlaqələrin möhkəmləndirilməsində Ümummilli Lider Heydər Əliyevlə bu ixtisaslaşmış qurumun Baş Direktorunun sonrakı görüşləri də müstəsna xarakter kəsb etmişdir. Həmin görüşlərdə əsasən dövlətimizin təhsil, elm və mədəniyyət məsələləri müzakirə edilmişdir.

AR və YUNESKO qarşılıqlı münasibətlərindən danışarkən Heydər Əliyev Fondunun və xüsusilə də Mehriban xanım Əliyevanın bu istiqamətdə xidmətlərini xüsusilə qeyd etmək lazımdır. Belə ki, bu əlaqələrə verdiyi böyük töhfəyə görə 13 avqust 2004-cü il YUNESKO-nun Parisdəki iqamətgahında YUNESKO-nun Baş Direktoru cənab Koişiro Matsuura tərəfindən Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyəti Fondunun Prezidenti xanım Mehriban Əliyevaya təşkilatın qərarı kimi YUNESKO-nun Xoşməramlı Səfiri fəxri adı verilmişdir. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti milli-mənəvi və intellektual yüksəlişə xidmət edən ideualların cəmiyyətdə daha da möhkəmlənməsinə yönəlmişdir. Azərbaycanın birinci xanımının istər milli-mənəvi irsin qorunması və dünya miqyasında təbliği, istər elm və təhsilin səviyyəsinin yüksəldilməsi, istərsə də səhiyyənin inkişafı, insanların fiziki-mənəvi sağlamlığının təminatı yönümündə həyata keçirdiyi strateji layihələr onun fəal vətəndaşlıq mövqeyində dayanmasının, yüksək mənəvi məsuliyyətinin təzahürüdür.

YUNESKO ilə yanaşı, Respublikamız mədəniyyət sahəsində digər beynəlxalq təşkilatlarla da sıx əməkdaşlıq edir. İslam Konfransı Təşkilatı, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, Ümumdünya Turizm Təşkilatı, İSESKO, MDB, GUAM, QDİƏT və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq vasitəsi ilə milli mədəniyyətin xarici ölkələrdə təbliği ölkənin mədəniyyət siyasətinin əsas prioritet istiqamətlərindən biridir.

**Üçüncü paraqrafda** AR-də dövlət hakimiyyəti orqanlarının mədəni hüquqların realizəsi üzrə fəaliyyəti problemləri tədqiq edilir.

Mədəni hüquq və azadlıqların müdafiəsi sahəsində nə qədər normativ baza formalaşsa da, həmin normaların realizəsi olmadan, bu hüquqlar kağız



üzərində qalır. Mədəni hüquqların müdafiəsi sahəsində mövcud normaların realizəsi işində əsas yük dövlət orqanlarının üzərinə düşür. Respublikamızda insan hüquq və azadlıqlarına, o cümlədən mədəni hüquq və azadlıqlara böyük diqqət və qayğı göstərilir. Tədqiqatlar göstərir ki, müasir şəraitdə innovativ tərəqqi əsasında iqtisadiyyatın inkişafı mədəniyyətin hərtərəfli inkişafı olmadan həyata keçirilə bilmir. Dissertasiyada dövlət hakimiyyəti orqanlarının mədəni hüquqların realizəsi üzrə fəaliyyəti üç əsasda təsnifləşdirilir. Bu zaman hakimiyyətlərin bölgüsü prinsipi əsas götürülməklə qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarının fəaliyyətinə nəzər yetirilməsi məqsədəmüvafiqdir.

Parlamentlərin qəbul etdikləri aktların əksəriyyəti insan və vətəndaşların hüquq və azadlıqlarının realizəsinə yönəlmişdir. Bu aktlarda hüquq və azadlıqların həyata keçirilməsi üçün ümumməcburi qaydalar müəyyən edilir. Məhz qanunverici hakimiyyətin fəaliyyəti həm mədəni hüquqların realizəsi üzrə əsas normativ hüquqi aktları formalaşdırır, həmçinin dövlət mədəniyyət siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir. Dövlət mədəniyyət siyasətinin əsasında insanların mədəni hüquq və azadlıqlarının həyata keçirilməsi, həmçinin mədəniyyət sahəsində insanların vəzifələrinə riayət etməsi məsələləri öz əksini tapır. AR Milli Məclisi tərəfindən bu istiqamətdə kifayət qədər normativ-hüquqi aktlar qəbul edilmişdir.

Mədəni hüquqların realizəsində əsas işləri icra hakimiyyəti həyata keçirir. İcra hakimiyyəti sistemi dövlət idarəçilik orqanlarının və dövlət qulluqçularının əsas hissəsini əhatə edir və bir çox funksiyalara malikdir. AR Konstitusiyasına müvafiq olaraq icra hakimiyyətini AR Prezidenti həyata keçirir (maddə 7.3). AR Prezidenti ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasını təmin edir. Göründüyü kimi, beynəlxalq hüquq normalarının realizəsi funksiyası Prezidentin konstitusion funksiyasıdır. Prezident öz funksiyalarını fərman və sərəncamları vasitəsilə həyata keçirir.

Müasir hüquq müdafiə mexanizmində insan hüquq və azadlıqlarının müdafiəsinin əsas forması məhkəmələrin fəaliyyətidir. Ümumiyyətlə, məhkəmə hakimiyyətinin təyinatı insan hüquq və azadlıqlarının müdafiəsi, qanunverici və icra hakimiyyətinin aktlarının konstitusiyaya uyğunluğu, qanun və digər normativ aktların icrası və tətbiqi zamanı qanunçuluq və ədalətə riayət olunmasından ibarətdir. Bütövlükdə isə, məhkəmə hakimiyyəti fəaliyyətinin əsas məzmununu insan və vətəndaşın hüquq və azadlıqlarının realizəsinin təmin olunması təşkil edir. Belə realizənin təmini üçün məhkəmələr müstəqil və geniş səlahiyyətli olmalıdır.

Beləliklə, dövlət hakimiyyəti orqanlarının mədəni hüquqların realizəsi üzrə fəaliyyəti ölkənin əsas qanununa müvafiq olaraq qanunverici, icra və məhkəmə hakimiyyəti səviyyəsində həyata keçirilir. AR

praktikasında da bu mədəni hüquqlar, o cümlədən bütövlükdə insan hüquq və azadlıqlarının daha real təmini istiqamətində inkişaf edir.

**Dissertasiya işinin nəticə hissəsində** tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmiş, beynəlxalq və dövlətdaxili hüquq üçün onların nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir:**

1. Mədəni hüquq insan hüquqlarının bir növüdür. Beynəlxalq hüquq və inteqrasiya problemləri, Bakı, 2007, №3-4 (11-12), s. 49-54.

2. Mədəni hüquqlar və onların təsnifatı. Beynəlxalq hüquq və inteqrasiya problemləri, Bakı, 2008, №1-2 (13-14), s. 44-50.

3. Права человека и культурное разнообразие. Взаимодействие культур в условиях глобализации. Материалы международной научной конференции, посвященной памяти общенационального лидера азербайджанского народа Гейдара Алиева. Москва, 2010, с. 366-370.

4. Новые подходы к культурным правам в контексте международного и национального права. Полигнозис. Философия, наука, культура, религия. Москва, 2014, №1-2, с. 118-120.

5. Mədəni hüquqlara yeni yanaşmalar: beynəlxalq və milli hüquq kontekstdə. Ekoloji təhlükəsizlik problemi və insan hüquqları. 10 dekabr beynəlxalq insan hüquqları gününə həsr edilmiş Beynəlxalq-elmi praktik konfransın (13-14 dekabr 2012-ci il) materialları. I cild. Bakı, 2013, s. 422-424.

6. Mədəni hüquqların beynəlxalq və milli hüquqi tənzimlənməsinin bəzi məsələləri. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), Bakı, 2014, №4 (40), s. 170-175.

7. Mədəni hüquqların beynəlxalq hüquq normalarında təsbit olunması. Nəqliyyat hüququ, 2015, №3, s. 129-136.

8. Mədəniyyət sahəsində dövlət idarəetməsi. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, I cild, 2015, s. 64-66.

9. Mədəni hüquqların təminatında regional beynəlxalq sistemlərin əsas fəaliyyət xüsusiyyətləri və onların milli mexanizmlərlə qarşılıqlı əlaqəsi. Beynəlxalq hüquq və inteqrasiya problemləri, Bakı, 2015, №4 (44), s. 31-36.

10. Beynəlxalq və milli hüquqda mədəni hüquqların təsnifatı. Naxçıvan Dövlət Universiteti. İctimai elmlər seriyası, 2015, №6 (71), s. 21-24.



## РЕЗЮМЕ

Диссертационная работа Исмаиловой Парвины Фазаил кызы на тему «Культурные права: сравнительный анализ норм международного права и законодательства Азербайджанской Республики», представленная на соискание ученой степени доктора философии по праву по специальности «5603.01 - Международное право; права человека», является самостоятельным, творческим и законченным исследованием, отражающим совершенно новые научные положения о защите прав и свобод человека, в том числе культурных прав на уровне международного и внутригосударственного права, о реализации в Азербайджанской Республике международно-правовых норм о культурных правах и совершенствовании нашего национального законодательства в этой сфере. Диссертационное исследование основано на сравнительном анализе универсальных, региональных и двусторонних международных договоров, соглашений и конвенций, а также судебной практики в сфере культурных прав, соответствующих решений и резолюций международных и региональных организаций, законодательств разных государств, в том числе и Азербайджанской Республики, с учетом разнообразия мнений, существующего в юридической литературе. Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, раскрываются степень ее разработанности, представленные к защите положения, цели и задачи исследования, ее теоретическое и практическое значение.

Первая глава работы, которая называется «Формирование, сущность и классификация культурных прав, и их место в системе прав человека», состоит из трех параграфов. В этой главе исследуются становление, история развития, понятие, сущность и правовая природа культурных прав, в том числе вопросы, связанные с классификацией культурных прав и их место в системе прав человека.

Вторая глава диссертации, которая называется «Международные правовые основы и защита культурных прав» и состоит из трех параграфов, посвящена исследованию проблем отражения защиты и развития культурных прав в нормах международного права, защиты культурных прав на универсальном уровне, в частности, деятельность ЮНЕСКО в сфере защиты культурных прав. В этой главе также рассмотрены проблемы, связанные нормативными и организационными механизмами защиты культурных прав на региональном уровне.

Глава третья называется «Проблемы реализации и развития культурных прав в Азербайджанской Республике». В этой главе, состоящей из трех параграфов, исследуются влияние норм международного права в сфере культурных прав на формирование и развитие соответствующих норм национального законодательства Азербайджанской Республики, международное культурное сотрудничество Азербайджанской Республики и проводимая ею внутренняя и внешняя культурная политика, а также вопросы, связанные с деятельностью органов государственной власти по реализации культурных прав человека в Азербайджанской Республике.

В заключении отмечены связанные с исследованием важнейшие выводы и предложения, в том числе, выражено их теоретико-практическое значение для международной и внутригосударственной нормативной правовой системы.

**SUMMARY**

Parvina Fazail gizi Ismayilova's dissertation on the theme "Cultural rights: a comparative analysis of the norms of international law and the legislation of the Azerbaijan Republic", presented for the degree of Doctor of Philosophy in Law on specialty 5603.01 – "International Law; Human Rights", is an independent, creative and complete research, reflecting the completely new scientific positions in the sphere of human rights protection, including cultural rights and freedoms at the international and domestic level, as well as the implementation of international law on cultural rights in the Republic of Azerbaijan and the improvement of national legislation in this area. The dissertation is formed on the basis of the legislation of the various states and diverse points of views existing in legal literature in the field of cultural rights, including extensive international universal, regional and bilateral agreements, decisions and resolutions of international and regional organizations, as well as judicial practice.

According to the structure, dissertation consists of an introduction, three chapters, each consisted of three sub-chapters, conclusion and bibliography.

The introduction substantiates the relevance of the research, defines goals and objectives, theoretical and practical significance of the study, explains the new scientific provisions for the defense and practical significance of the work, provides the information about testing results and the structure of research.

The first chapter is named "Formation, essence, classification and place of cultural rights in the human rights system" and consists of three paragraphs. This chapter examines the issues of formation, the history of development, essence and legal nature, including classification and place of cultural rights in the human rights system.

In the second chapter of the dissertation, consisted of three paragraphs and named "International legal basis and protection of cultural rights", examines the problems associated with the reflection of the protection and promotion of cultural rights in the international law, the protection of cultural rights at the universal level, specifically, UNESCO's activity in the protection of cultural rights, as well as normative and institutional mechanisms on the protection of cultural rights at the regional level.

The third chapter of the dissertation is named "Development and implementation issues of cultural rights in the Republic of Azerbaijan" and consists of three paragraphs. This chapter studies the influence of international law in the field of cultural rights on the formation and development of the national legislation of the Republic of Azerbaijan in this sphere, international cultural cooperation, and domestic and foreign cultural policy of the Republic of Azerbaijan, including the activity of public authorities on realization of cultural human rights in the Republic of Azerbaijan.

The conclusion of the dissertation is comprised of the most important suggestions and conclusions of the author, that are achieved in the end of the research, including their theoretical and practical importance for international and domestic law.



**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ПАРВИНА ФАЗАИЛ кызы ИСМАИЛОВА**

# КУЛЬТУРНЫЕ ПРАВА: СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ НОРМ МЕЖДУНАРОДНОГО ПРАВА И ЗАКОНОДАТЕЛЬСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальность: 5603.01 - «Международное право; права человека»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по праву**

**БАКУ – 2016**